AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

# “Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin mühüm aspektləri” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Nəzərov Yusif Faiq**

**BAKI-2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d.,dos Əhmədov Fariz Saleh**

**"____"_____2019-ci il**

**"Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin mühüm aspektləri" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı : 060404 İqtisadiyyat**

**İxtisaslaşma : İqtisadiyyatın tənzimlənməsi**

**Qrup: 20**

**Magistrant**
**Nəzərov Yusif Faiq**

**___________________imza**

**Elmi rəhbər**
**i.e.d.,prof. Manafov Qabil Nadir**

**_________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d,b.m. Hümbətova Suqra İnqilab**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d.,prof. Kəlbiyev Yaşar Atakişi**

**__________________imza**

**BAKI-2019**

**Important aspects of raising the competitiveness of the national economy.**

**Summary**

**İn current global market, the concept of competitiveness has gained significant attention because each country's level of productivity critically determines its position in international arena. Once a country acquires significant level of competitiveness, that country becomes capable of successfully operating in international market by attaining significant market share, profitability and stability. Accordingly, in this dissertation, it is aimed to analyze current state of competitiveness in Azerbaijan Republic via means of evaluating its productivity in two fundamental economic sectors, which are industrial and agricultural productivity.**

**In order to achieve research objective, the data about current state of industrial and agricultural productivity in Azerbaijan Republic was collected from secondary sources, especially from State Statistics Committee of Azerbaijan Republic. The collected data was presented in Tables in form of statistics and interpreted in a comparative manner. The limitations of research were associated with the lack of capacity to collect more detailed and recent information about industrial productivity in the regions of Azerbaijan Republic along with agricultural productivity in various regions of Azerbaijan Republic.**

**The findings of the dissertation revealed that Azerbaijan Republic experience a positive growth in its competitiveness due to an increase in its national productivity. As the country experiences stable and positive increase in industrial and agricultural productivity, the competitiveness of this country has been increasing on stable basis over recent years. In this dissertation, there were also three suggestions that were provided for further improvement of national competitiveness in Azerbaijan Republic.**

**Key Words: Competitiveness, Economy, Industry, Agriculture**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABAD** | Ailə Biznesinə Asan Dəstək |
| **GCİ** | Beynəlxalq Rəqabətqabilyyəti İndeksi |
| **GCR** | Beynəlxalq Rəqabətqabiliyyəti Hesabatı |
| **GŞZ** | Göygöl Şərab Zavodu |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **SOCAR** | Azərbaycan Dövlət Neft Şirkəti |
| **KOS** | Kiçik və Orta Shibkarlıq |

MÜNDƏRİCAT

**GİRİŞ………………………………………………………………….....7**

**I Fəsil MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI.............................................................10**

1.1.Rəqabətqabiliyyətlilik anlayışı, əsas xüsusiyyətləri və ona müxtəlif yanaşmalar..........................................................................................10

1.2.İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin amilləri və göstəriciləri.....................17

1.3.Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin əhəmiyyəti.........................................................................................24

**II Fəsil AZƏRBAYCAN İQTİSADİYYATININ BEYNƏLXALQ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN MÜASİR VƏZİYYƏTİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ .......................................................................28**

2.1.Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi..........................................................................28

2.2 Müəssisələrin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi............................33

2.3. Məhsulların rəqabətqabiliyyətinin təhlili .......................................................37

**III Fəsil MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI VƏ İSTİQAMƏTLƏRİ.................................45**

3.1.İnnovasiya fəaliyyətinin rəqabətqabiliyyətliliyin yüksədilməsindəki rolu.........................................................................................................45

3.2.Ölkənin rəqabətqabiliyyətinin yüksəldilməsində dövlət-sahibkarlıq əməkdaşlığının rolu..........................................................................52

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................56**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT.........................................................58**

Cədvəllərin siyahısı..........................................................................................62

# GİRİŞ

**Mövzunun aktuallığı.** Dünya inkişafının geoiqtisadi paradiqmasının hakim mövqelərə keçməsi şəraitində beynəlxalq rəqabətqabiliyyətlilik milli iqtisadiyyatların həyat qabiliyyətliliyi və geoiqtisadi məkandakı mövqelərinin əlverişlilik dərəcəsini ən dolğun əks etdirən göstəriciyə çevrilir. Milli iqtisadi sistemin beynəlxalq rəqabətqabiliyyətliliyi kompleks göstərici olaraq, mövcud resursların effektiv istifadəsi və yüksək məhsuldarlığının təmin edilməsi yolu, həmçinin ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişaf qabiliyyətini əhalinin yüksələn rifahı ilə birləşdirmək imkanı ilə müəyyən olunur.Ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsi isə öz növbəsində sosial-iqtisadi həyatın bütün sferalarında effektiv, sistemli tədbirlərin reallaşdırılmasını tələb edir. Daha da qloballaşan iqtisadi cəmiyyətin yaranması, texnoloji inkişafin artması, ticarət əlaqələrinin inkişafi, və özəl müəssisələrin sayının və istehsal həcminin artması, beynəlxalq arenada ölkələrin rəqabətqabiliyyətinin artırılması ilə nəticələndi. Bütün bu kimi dəyişikliklər və inkişaflar, ticarət həcminin artmasına və rəqabətlilik anlayışının daha böyük önəm kəsb ətməsinə gətirib çıxardı. Buna görə də, günümüzdə ölkələrin rəqabətqabiliyyətini müəyyən edən ən əsas amil ölkələrin istehsal həcmidir.Belə ki,ölkələrin beynəlxalq arenada söz sahibi olmasına birbaşa təsir edir. Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən sonra beynəlxalq bazarda öz mövqeyini inkişaf etdirməkdə davam etmişdir. Buna əsas səbəblərdən biridə ölkənin istehsal həcmindəki inkişafla əlaqəlidir.Belə ki, ölkədə münbit şəraitin və təbii resursların mövcudluğu ölkənin istehsal həcminə təsir göstərmiş və nəticədə rəqabətqabiliyyətliliyisonillərdə inkişaf etmişdir.Bu səbəbdən, ölkənin rəqabətqabiliyyətliliyinin araşdırılması və onun inkişaf istiqamətlərinin müəyyən edilməsi günümüzün ən aktual mövzularından biridir.

**Tədqiqat işinin məqsədi.** Dissertasiyanın əsas məqsədi ölkənin mövcud rəqabətqabiliyyətliliyinin analiz edilməsi və müəyyən edilməsidir.

Bu məqsədlə ölkənin iqtisadiyyatının sənaye və kənd təsərrüfatı kimi sahələrinin son illərdəki istehsal həcmi analiz edilmiş və keçmiş illər ilə müqayisə

edilmişdir.Bundan əlavə, dissertasiyanın əsas məqsədlərindən biridə ölkənin iqtisadiyyatının inkişaf istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

Azərbaycan Respublikasının rəqabətqabiliyyətini analiz etmək dissertasiyanın əsas məqsədi olmuşdur. Bu məqsədə nail olmaq üçün dissertasiyada müəyyən obyektlər müəyyən edilmişdir:

- Rəqabətqabiliyyətliliyin nəzəri və metodoloji əsaslarının müəyyən edilməsi;
- Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin müasir vəziyyətinin müəyyən edilməsi;
- Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları və istiqamətlərinin aydınlaşdırılması.

**Tədqiqat işinin predmeti.** Dissertasiyanın predmetini ölkənin sənaye və kənd təsərrüfatı kimi sahələrinin istehsalının nəzəri və praktiki məsələlərinin aydınlaşdırılması və öyrənilməsi təşkil edir.

**Tətbiq olunduğu sahə.** Azərbaycan Respublikasının rəqabətqabiliyyətinin müasir vəziyyətinin müəyyən edilməsi məqsədilə ölkənin sənaye və kənd təsərrüfatı sahələrindəki istehsalı dissertasiyanın tətbiq olunduğu sahələridir.

**Tədqiqatın strukturu.** Dissertasiyanınbirinci fəsili "Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin nəzəri-metodoloji əsasları" adlanır və üç paraqrafdan ibarətdir. Bu paraqrafda rəqabətqabiliyyətlilik anlayışının mahiyyəti izah olunaraq,onun əsas xüsusiyyətləri qeyd edilib və müxtəlif nəzəri yanaşmalara yer verilib.Dissertasiyanın ikinci fəsili "Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin müasir vəziyyəti və qiymətləndirilməsi" adlanır. Bu fəsildə Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi aparılıb. Dissertasiyanın üçüncü fəsili isə "Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları və istiqamətləri" adlanır. Bu fəsildə innovasiyalar rəqabətqabiliyyətliliyin yüksəldilməsinin mühüm aspekti kimi göstərilib, xüsusilə, iqtisadiyyat sahəsində effektiv strategiyaların hazırlanması və gələcək zaman perspektivində bir çox faktorların nəzərə alınmasında önəmi vurğulanıbdır.

**Dissertasiyanın həcmi və strukturu**. Bu dissertasiya giriş, 3 fəsil, nəticə və təklif və ədəbiyyatsiyahısından ibarətdir. Dissertasiyada 8 cədvəldən və 43 ədəd müxtəlif ədəbiyyatdan istifadə edilmişdir.

# l Fəsil MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1.Rəqabətqabiliyyətlilik anlayışı, əsas xüsusiyyətləri və ona müxtəlif yanaşmalar

Son bir neçə il ərzində, rəqabətlilik anlayışı xüsusi diqqət qazanmışdır. 1970-ci illərdən sonra Beynəlxalq Birbaşa İnvestisiyanin həcmi ciddi şəkildə artmışdır.Bu isə beynəlxalq iqtisadiyyatda və ticarətdə ciddi dəyişiklərlə nəticələnmişdir.Belə ki, özəl şirkətlərin əksəriyyəti texnologiyaya əsaslanan istehsalat sahələrinə yönəlmiş və bu sahələrdə birbaşa investisiya yatıraraq xarici ölkələrdə fəaliyyət göstərməyə başlamışdır. Buna görə də 1970-ci illər,bugünkü qloballaşmış biznes cəmiyyətinin təməlinin qoyulduğu illər kimi qəbul edilir.

Bundan əlavə, 1980-ci illər isə ciddi iqtisadi islahatların həyata keçirildiyi ən əsas tarixi dövr hesab edilir.Odur ki, bu dövrdən sonra bir çox inkişaf etməkdə olan ölkə daha liberal iqtisadi siyasətlər həyata keçirməyə başladı.Bu isə,ciddi həcmdə dövlət mülklərinin özəlləşdirilməsi və "planlı iqtisadiyyat"-ın "bazar iqtisadiyyatı ilə əvəzedilməsi ilə nəticələndi.Bu dövrdə inkişaf etməkdə olan dövlətlərin əsas məqsədi inkişaf edən və böyük əhəmiyyət kəsb edən dünya iqtisadiyyatına inteqrasiya etmək və beynəlxalq ticarət arenasında söz sahibi olmaqdan ibarət idi. Bu kimi dəyişikliklər, inkişaf etməkdə olan ölkələrin bir-biri ilə daha çox ticarət əlaqələrinin həyata keçirilməsi və nəticədə daha çox rəqabətin meydana çıxması ilə nəticələndi.

Daha da qloballaşan iqtisadi cəmiyyət, texnoloji inkişaf və ticarət əlaqələrinin inkişafi, özəl müəssisələrin daha çox məhsul istehsal etməsi və rəqabət qabiliyyətinin artırılması ilə nəticələndi. Bütün bu kimi dəyişikliklər və inkişaflar, ticarət həcminin artmasına və rəqabətlilik anlayışının daha böyük önəm kəsb etməsinə gətirib çıxardı.

Rəqabətqabiliyyətlilik anlayışı iqtisadiyyatda ən çox istifadə edilən terminlərdən biridir, lakin bu anlayışın hər kəs tərəfindən qəbul edilən aydın və

dəqiq bir tərifi mövcud deyil. Bu anlayış Latın sözü olub “bir məqsədə nail olmaq” və ya “bir yerdə həmlə etmək” mənasına gəlir.

Milli rəqabətqabiliyyətlilik anlayışı bir ölkənin yaratmaq, istehsal etmək, və paylamaq qabilliyyəti ilə sıx əlaqələnir(Ajitabh A.,2004).Baxmayaraq ki,milli rəqabətqabiliyyətliliyi ölçmək üçün müxtəlif göstərici mövcuddur, bu anlayış bir ölkənin mikro və makro səviyyədə məhsuldarlığının davamlı inkişaf etməsi ilə sıx əlaqələnir. Buna görə də, hər hansı bir ölkənin milli rəqabətqabiliyyətliliyini üç müxtəlif faktora əsasən müəyyən etmək mümkündür:

- Şirkət Səviyyəsindəki milli rəqabətqabiliyyətlilik
- Sənaye Səviyyəsindəki milli rəqabətqabiliyyətlilik
- Beynəlxalq Səviyyədəki milli rəqabətqabiliyyətlilik

Şirkət səviyyəsindəki rəqabətqabiliyyətlilik anlayışı bir şirkətin daha aşağı xərclə və daha yüksək keyfiyyətlə istehsaletmə bacarığına əsaslanır.Buna görə də, şirkət səviyyəsindəki milli rəqabətqabiliyyətliliyi müəyyən edən ən əsas amillər kəyfiyyət, xərc və qiymət səviyyəsidir.Ölkələrin rəqabətqabiliyyətinin daha çox olması üçün, şirkət səviyyəsində ölkələrin inkişafı ən əsas amildir.Çünki firmaların fəaliyyətin səviyyəsindəki artım ölkələrin rəqabətqabiliyyətliliyini artırır və daha müvəffəqiyyətlə beynəlxalq bazarda fəaliyyət göstərməyinə şərait yaradır.

Sənaye səviyyəsindəki rəqabətqabiliyyətlilik anlayışı müəyyən sənayenin səmərəli şəkildə fəaliyyət göstərməsi və xarici rəqiblər tərəfindən yaradılan çətinliklərin aradan qaldırılması ilə müəyyən edilir.Bu halda, səmərəli şəkildə fəaliyyət göstərmək sənayedə ən mühüm amildir.Belə ki,sənayeninrəqabətqabiliyyətliliyini artırır və daha yüksək səviyyədə fəaliyyət göstərməsinə şərait yaradır. Səmərəli fəaliyyət dedikdə,əsasən istehsalprosesindəki xərclərin minimum səviyyəyə endirilməsi və lazımsız xərclərin aradan qaldırılmasına əsaslanır.

Beynəlxalq səviyyədəki rəqabətqabiliyyətlilik anlayışı isə firavanlıq və real gəlir səviyyəsinin ölkə daxilindəki istehsalsəviyyəsi vasitəsilə artması ilə sıx əlaqələnir.Burada əsas amil məhsul və servis fəaliyyətinin beynəlxaq bazar prinsiplərinə əsasən aparılması və bu istehsalın ölkə daxilindəki gəlir və firavanlıq səviyyəsinə olan təsirdir.

Hazırda bazar iqtisadiyyatında ən əsas komponentlərdən biri yüksək rəqabətin mövcud olmasıdır.Beynəlxalq bazarda müvəffəqiyyətlə fəaliyyət göstərmək üçün özəl müəssisələr özlərinin rəqabətqabiliyyətliliyini artırmaq üçün müəyyən üsullardan istifadə edirlər.

Rəqabətqabiliyyətlilik dedikdə sənaye sahəsində və ya onun hər hansı bir sektorunun istehsal etdiyi məhsulların digər rəqiblərə nisbətən daha yüksək keyfiyyətə və daha az qiymətə sahib olması başa düşülür.Burada ən vacib məqam isə odur ki, sənayenin və yaxudda onun hər hansı bir müəssisəsinin rəqabət üstünlüyünün mövcüd olmasıdır.Eyni xüsusiyyətə malik məhsulların daha yüksək keyfiyyətlə və daha münasib qiymətə bazarda müştərilərə təklif edilməsi, həmin sənaye müəssisəsinin rəqabətqabilliyətliliyinin mövcud olması kimi qiymətləndirilir.

İqtisadçı M.Porter isə rəqabətqabilliyətlilik anlayışının ölkə məhsuldarlığı ilə sıx əlaqələndiyini və ölkə məhsuldarlığının hər hansı bir sənaye qolunun rəqabət üstünlüyünü müəyyən etdiyini iddia etmişdir(Porter M. E.1999).M.Porterə görə rəqabətqabilliyətlilik müəyyən iqtisadiyyatın ölkə vətəndaşlarını artan həyat standartları və yüksək iş səviyyəsi ilə təmin etmə bacarığına deyilir.Bu məqamda, ən əsas amillər ölkə əhalisinin yüksək yaşayış standartları və işlə təmin edilməsi bir ölkənin rəqabətqabiliyyətliliyinin ən əsas xüsüsiyyətləri kimi nəzərə çarpır.

Digər iqtisadçılar Barker və Köhler isə rəqabətqabiliyyətlilik anlayışını müəyyən edərkən onu ölkənin beynəlxalq bazardakı fəaliyyəti ilə əlaqələndirmişdir (Barker T. və Köhler J.1998.).Onlara görə ölkənin beynəlxalq bazardakı tələblərin müəyyən qismini öz daxili məhsul istehsalı ilə təmin etmə potensialı həmin ölkənin rəqabətqabiliyyətliliyini müəyyən edən ən əsas amil hesab edilir. Bundan əlavə, ölkənin rəqabətqabiliyyətliliyini müəyyən edən digər amil isə həmin ölkənin öz əhalisini artan real gəlir və yüksək həyat səviyyəsi ilə təmin etməsidir(Barker T. və Köhler J., 1998.).

Müasir dövrdə rəqabətqabiliyyətlilik anlayışı daha çox firma səviyyəsindəki rəqabətliliyə əsaslanır.Rəqabət qabilliyəti hər hansı bir şirkətin

bazar şəraitinə və tələblərinə uyğunlaşmasına və rəqabət tələblərinə cavab verməsinə əsaslanır.

Rəqabətqabilliyyətliliyini artırmaq üçün şirkətlər istehsal etdikləri məhsulları bazar tələblərinə uyğunlaşdırmalı və məhsullarının keyfiyyətini, qiymətini, satış metodunu və həcmini bazar şəraitinə uyğun həyata keçirməlidir.

Beynəlxalq ticarətin inkişafı nəticəsində yeni bir anlayış, beynəlxalq rəqabət qabiliyyəti anlayışı meydana gəlmişdir.Bu anlayış ölkə daxilində istehsal olunan və həddindən artıq çox olan, yeni daxili bazardakı tələbi tamamilə qarşılayan və artıq qalan məhsulların beynəlxalq bazarda digər ölkələrə ixrac olunması və nəticədə həmin ölkədə mövcud olmayan məhsulların alınmasına deyilir(Altomonte C,2012).

Rəqabətqabiliyyətlilik rəqabət aparan ölkələrin və ya şirkətlərin ən vacib xüsusiyyətidir. Belə ki, bu anlayış həmin ölkənin və ya müəssisənin fəaliyyətini və istehsal səviyyəsini müəyyən edir.İqtisadi həyatın ən əsas meyarlarından biri rəqabətdir.Rəqabət dedikdə,iqtisadi sahələrdə gəlirlərin çoxalması və bazara nəzarəti ələ keçirmək üçün həyata keçirilən fəaliyyətə deyilir. Rəqabət etməkdə əsas məqsəd isə eyni sənayedə fəaliyyət göstərən və eyni məhsualları istehsal edən rəqiblərin bazardakı təsirlərinin azalması və fəaliyyətlərinin dayandırılmasıdır. Rəqabətin dörd ədəd əsas modeli mövcuddur:

- Mükəmməl rəqabət
- Oliqopolistik rəqabət
- İnhisar rəqabət
- Xalis inhisar

Mükəmməl rəqabətin mövcud olduğu bazarda eyni funksiyaya sahib məhsullar çox şirkət tərəfindən istehsal edilir və bazarda müştərilərə təklif edilir. Eyni funksiyaya sahib məhsullar bir birindən fərqlənmədiyi üçün bazarda eyni qiymətə müştəriyə təklif edilir.

Oliqopolistik rəqabətin mövcud olduğu bazarda, sadəcə bir neçə şirkət eyni və ya az fərqlənən məhsulların istehsalı ilə məşğul olur və bazarda müştərilərə təqdim edir. Belə rəqabətin olduğu bazarda, şirkətlər bir biri ilə qiymət üzərində

rəqabət aparmırlar.Belə bazarın ən əsas xüsusiyyəti  ondan ibarətdir ki,sadəcə bir neçə müəssisə bazarı idarə edir və alıcılara məhsullarının bazardakı digər məhsullardan fərqli olduğunu çatdırmağa çalışır.Əsas məqsəd isə alıcıların diqqətinin cəlb edilməsi və məhsulların digər şirkətlərin məhsullarından fərqlənməsinə nail olmaqdır.

İnhisar rəqabətin olduğu bazarda isə, bazarda fəaliyyət göstərən şirkətlər öz məhsullarını tamamilə və yaxud da biraz fərqləndirməyi bacarırlar.

Xalis inhisar sisteminin mövcud olduğu bazarda isə, sadəcə bir müəssisə bütün ölkə iqtisadiyyatını müəyyən məhsulla təmin edir.Burada rəqabət minimum səviyyədədir.Bunun əsas səbəbi şirkət tam şəkildə istehsal prosesini idarə edir və yəni istehsalçıların bazara girməsinin qanuni və iqtisadi yollarla qarşısını alır.

Rəqabətqabiliyyətlilik isə rəqabət aparan şəxslərin ən əsas xüsusiyyətdir.Bu terminin ən dəqiq tərifi "Dünya İqtisadi Forumu" tərəfindən verilmişdir. Rəqabətqabiliyyətlilik ölkə və ya şirkətin dünya bazarında öz rəqiblərindən çox sərvət toplama bacarığına deyilir.

Hər hansı bir ölkənin və ya şirkətin rəqabətqabiliyyətliliyini ölçmək üçün həmin qurumun real vəziyyəti  ilə gözlənilən vəziyyəti  arasında müqayisə aparmaq lazımdır. Bu müqayisəni apardığımız zaman rəqabətqabiliyyətliliyin 3 müxtəlif formasının mövcud olduğu aydın olur:

- Normal rəqabətqabiliyyətlilik
- Normadan az rəqabətqabiliyyətlilik
- Normadan çox rəqabətqabiliyyətlilik

Əgər faktiki şirkət və ya ölkə inkişafı gözlənilən göstərici ilə eyni səviyyədə olarsa,onda  həmin şirkətin və ya ölkənin normal rəqabətqabiliyyətliliyi vardır.Ancaq inkişaf səviyyəsi gözləniləndən altındadırsa bu rəqabətqabiliyyətliliyin normadan az olması deməkdir.

Ölkə və ya şirkətin biznes faktiki istehsal gücü və inkişafıgözləniləndən artıq olduqda isə həmin ölkənin və ya şirkətin rəqabətqabiliyyətliliyi normadan çox olur. Birinci kriteriyaya əsasən, rəqabətqabiliyyətliliyin iki növünü müəyyən etmək mümkündür:

- Göstəricilərə əsaslanan rəqabətqabiliyyətlilik
- Nəticəyə əsaslanan rəqabətqabiliyyətlilik

Göstəricilərə əsaslanan rəqabətqabiliyyətliliyin əsasını şirkətin effektiv şəkildə bazarda rəqabət aparmasına şərait yaradan amillər təşkil edir. Buna misal kimi şirkətin bazardakı dəyişikliklərə qısa və cəld şəkildə cavab verməsi, mövcud resursların effektiv və səmərəli şəkildə istifadə edilməsi və şirkət daxilindəki strukturun hər hansı bir dəyişikliyə maneə törətməməsi kimi amillər verilə bilər.

Nəticəyə əsaslanan rəqabətqabiliyyətlilikdə isə əsas amil bazardakı rəqabətin nəticəsidir. Müəyyən şirkətin bazardakı yeri, maliyyə fəaliyyəti, bazardakı təsir qüvvəsivə satış səviyyəsidir. Əgər bir şirkət bazarda lider yerə sahibdirsə,həmin şirkətin nəticəyə əsaslanan rəqabətqabiliyyətliliyi yüksək deməkdir.

Uzun müddətdə rəqabətqabiliyyətliliyin əsas xüsusiyyətləri səmərəlilik səviyyəsindəki və istehsal gücündəki keyfiyyətindəki artımdır. Bu kimi dəyişikliklər insanların yaşam standardlarına birbaşa təsir edir və onu inkişaf etdirir. Ümumiyyətlə, rəqabətqabiliyyətlilik hər hansı bir şirkətin həm daxili,həmdəxarici bazardakı rəqabəti ilə əlaqələnir.Xüsusilə istehsal prosesindəki xərclər və məhsul keyfiyyəti şirkətin rəqabətqabiliyyətliliyini müəyyən edən ən əsas elementlərdir.

Qısa müddətdə isə rəqabətqabiliyyətliliyin əsas amilləri kimi mövcud olan bazar qiyməti, maaşlar, məzənnə və bu kimi digər amillər istehsala ciddi şəkildə təsir edir.

Rəqabətqabiliyyətliliyinin üç sahəsi vardır;

- Rəqabət fəaliyyəti
- Rəqabət potensialı
- Rəqabət prosesi

Rəqabət fəaliyyəti hər hansı bir şirkətin digər rəqiblərlə müqayisədə daha yaxşı fəaliyyət göstərməsinə əsaslanır.Bu məqamda, şirkətin rəqabət fəaliyyətini müəyyən edən həmin şirkətin məhsullarının satış səviyyəsi, keyfiyyəti və qiyməti əsas amillərdir.Rəqabət potensialı məhsuların istehsalı prosesində istifadə edilən

resursların yüksək və səmərəli şəkildə istifadəsi ilə əlaqələnir.Rəqabət prosesi isə şirkətin idarədilməsi prosesi və onun effektiv şəkildə fəaliyyət göstərməsi üçün biznes fəaliyyətlərinin idarə edilməsinə əsaslanır.Buna görə də hər hansı bir şirkətin rəqabətqabiliyyətini ölçmək istədikdə bu üç elementin nəzərə alınması vacibdir.

"Şirkətlərin Rəqabətqabiliyyətliliyi" məqaləsində müəllif, A.Ajitabh isə diqqətini rəqabətqabiliyyətinyaranmasının və inkişaf etməsinin səbəblərini aydınlaşdırmağa yönəltmişdir(Ajitabh A, 2004).Onagörə maddi və qeyri-maddi resursların kombinasiyası və şirkət daxilindəki istehsal prosesini,həmçinin şirkətin rəqabətqabiliyyətliliyini müəyyən edir.Şirkətin sahib olduğu insan resursları, sənaye infrastrukturu, texnologiya, ticarət nişanı və bu kimi göstəricilər bazarda rəqabət üstünlüyünün yaranmasına və rəqabətqabiliyyətliliyinin artmasına şərait yaradır.

Rəqabətqabiliyyətlilik anlayışının tərifi dəqiq şəkildə vermək mümkün deyildir,çünki hal hazırda belə bu anlayışın aydınlaşdırılması üçün dərin müzakirələr aparılır.Ancaq ümumi bir baxış ondan ibarətdir ki,rəqabətqabiliyyətlilik anlayışını mikro və makro səviyyədə fərqləndirmək lazımdır.

Bir tərəfdən makro səviyyədə, rəqabətqabiliyyətlilik hər hansı ölkənin və ya şirkətin bazardakı fəaliyyəti və nailiyyətləri ilə əlaqələnir. Şirkətin bazardakı mövqeyi və fəaliyyəti onun rəqabətqabiliyyətliliyini müəyyən edir. Digər tərəfdən mikro səviyyədə, rəqabətqabiliyyətlilik anlayışı iqtisadi inkişaf, həyat səviyyəsi və məhsuldarlığı rəqabətqabiliyyətliliyin əsas meyarları halına gətirir.

Bəzi iqtisadçılar, rəqabətqabiliyyətliliyi sadəcə şirkət səviyyəsi ilə əlaqələndirir vəbu anlayışınölkə və beynəlxalq səviyyədə tədbiqinin və əlaqələndirilməyinin mümkün olmadığını iddia edir. Lakin iqtisadçı P.Krugman,öz məqaləsi,"Rəqabətqabiliyyətliliyinin Əsası və Beynəlxalq Rəqabətqabiliyyətliliyi"əsərində bu anlayışı hər hansı bir ölkənin və ya şirkətin ödəniş balansını yaratması və yaşam səviyyəsininartırılmasıkimi müəyyən etmişdir(Krugman P.1996).

Digər bir iqtisadçı Bienkovski də rəqabətqabiliyyətliliyi hər hansı bir ölkənin digər ölkələrə nisbətən daha sürətlə və yüksək səviyyədə iqtisadi cəhətdən inkişaf etməsi kimi müəyyən etmiş və həmin ölkənin beynəlxalq bazardakı dəyişikliklərə qısa müddətdə və sürətli şəkildə uyğunlaşması ilə əlaqələndirmişdir.Rəqabətqabiliyyətlilik hər hansı bir ölkənin öz əhalisinin işlə təmin edilməsi və yüksək həyat səviyyəsinin mövcud olması ilə əlaqələnir.

Xorvatiya Milli Rəqabətqabiliyyətlilik Şurasına görə ölkənin beynəlxalq bazarda müvəffəqiyyətli şəkildə fəaliyyət göstərmə bacarığı ölkə əhalisi üçün yaşayış səviyyəsinin artması ilə nəticələnir və bu rəqabətqabiliyyətliliyin ən əsas xüsusiyyətidir. Rəqabətqabiliyyətlilik yeni məhsulların, investisiyaların və proseslərin yaradılmasına şərait yaradan biznes cəmiyyətinin fəaliyyəti nəticəsində inkişaf edir.Bu anlayış iqtisadçılar Djogo və Stanisic tərəfindən yaradılmışdır. Bu iqtisadçılara görə, ölkənin ticarət balansını təmin etmə, iş yaratma və real gəlir səviyyəsinin artırma bacarığına rəqabətqabiliyyətlilik deyilir. Ölkənin azad bazarda fəaliyyət göstərmə bacarığı onun rəqabətqabiliyyətliyini müəyyən edən ən əsas faktordur.

## 1.2.İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin amilləri və göstəriciləri

Rəqabətqabilliyətlilikanlayışıhaqqındakı müxtəlif nəzəriyyələr bu anlayış haqqında həddindən çox təriflərin və izahların meydana çıxması ilə nəticələnmişdir. Buna misal olaraq iqtisadçı Wignarajaya aid olan görüşü göstərmək olar.O, bu anlayış haqqındakı nəzəriyyələri üç qrupa bölmüşdür.
Bunlar aşağıdakılardır;

- Mikroiqtisadiyyata əsaslanan təriflər
- Biznes strategiyasına əsaslanan təriflər
- Texnologiya və innovasiyaya əsaslanan təriflər

Mikroiqtisadiyyata əsaslanan görüşlərə görə ölkələrin rəqabətqabiliyyətliliyini müəyyən edən ən əsas amil məzənnədir. Bu fikri dəstəkləyən iqtisadçılar iddia edirlər ki,ölkənin beynəlxalq bazarda və şirkət səviyyəsində rəqabətqabiliyyətini müəyyən edən amil məzənnədir.Məzənnə daxili

və xarici balansı müəyyən edən ən əsas elementdir.Bu fikir məktəbinin dəstəkləyiciləri real məzənnənin dəyərlənməsini ölkənin beynəlxalq rəqabətliliyinin azalması,məzənnənin dəyərdən düşməsini isə beynəlxalq rəqabətliliyinin inkişaf etməsi ilə əlaqələndirirlər.Mikroiqtisadiyyata əsaslanan görüşə görə ölkənin rəqabətqabiliyyətini ölçmək üçün istifadə olunmalı olan göstəricilər aşağıdakılardır;

- Qeyri-ticarət məhsullarının nisbi qiymətinin ticarət məhsullarına olan nisbəti
- Real effektiv məzənnə
- Nisbi istehlak qiyməti
- Əmək haqqı

Ən çox istifadə edilən göstərici isə real effektiv məzənnədir,çünki bu göstərici haqqında mövcud məlumat həm çoxdur,həm də əldə etmək olduqca asandır. Lakinrəqabətqabiliyyətlilik haqqındakı makroiqtisadi görüşlər ciddi şəkildə tənqid olunmuşdur.Ona görə ki, bu görüş ölkələrin rəqabətqabiliyyətliliyini sadəcə nisbi qiymətlər və ya vahid məsrəflər ilə əlaqələndirmiş və yalnız bu göstərcilər vasitəsi ilə ölkələrin və şirkətlərin rəqabətqabiliyyətliliyini ölçməyin mümkün olduğunu ifadə etmişdir.

Bundan əlavə, mikroiqtisadi görüşün dəstəkləyiciləri rəqabətqabiliyyətlilik anlayışını ölkələrin və şirkətlərin texnologiya potensialı və şirkətlərin öz məhsullarını çatdırma bacarığı kimi məzənnə və qiymət ilə əlaqəsi olmayan göstəriciləri nəzərə almadan analiz etmişdirlər. Eyni zamanda, hökumətin qərarlarının və müdaxilələrinin rəqabətqabiliyyətliliyə olan təsirini də nəzərə almamışdırlar; halbuki, şirkətlərin beynəlxalq bazarda rəqabətqabiliyyətliliyi və məhsuldarlığını müəyyən edən ən əsas amillərdən biridə ölkə daxilindəki dövlətin həyata keçirdiyi iqtisadi və siyasi qərarlardır.Rəqabətqabiliyyətlilik haqqındakı digər bir görüş isə biznes strategiyası ilə bağlıdır.

Biznes strategiyası mikroiqtisadiyyat görüşündən fərqli olaraq iqtisadi göstəricilərə əsaslanaraq rəqabətqabiliyyətliliyi müəyyən edir,perspektivi rəqabətqabiliyyətliliyini daha çox şirkətlər arasındakı rəqabətə və həmin şirkətlər

tərəfindən yaradılan və icra edilən strategiyalarla əlaqələndirir.Bu görüşə görə şirkətlərin həyata keçirdiyi biznes strategiyaları həmin şirkətlərin daxili və xarici bazardakı rəqabətqabiliyyətliliyini müəyyən edir və onların müvəffəqiyyətlə fəaliyyət göstərməsinə şərait yaradır.Bu fikir məktəbinin ən əsas dəstəkləyicilərindən biri iqtisadçı M.Porterdir. M.Porterə görə rəqabətqabiliyyətlilik və məhsuldarlıq eyni anlayışlardır,çünki milli rəqabətqabiliyətliliyi müəyyən edən əsas amil milli məhsuldarlıq səviyyəsidir(Porter M.E.1999).Bundan əlavə, rəqabətqabiliyyətliliyi məhsuldarlıqla əlaqələndirən ən əsas xüsüsiyyət, məhsuldarlığın ölkədəki həyat səviyyəsinə və firavanlığa birbaşa təsir etmə potensialının olmasıdır.

Porterin nəzəriyyəsinə əsasən hökumətin rolu isə şirkətlərin bir-biri ilə rəqabət aparmasını daha da intesivləşdirəcək mühitin yaranmasını temin etmək və ölkə daxilindəki məhsuldarlığın dolayısı ilə rəqabətqabiliyyətliliyini artırmaqdan ibarətdir (Porter M.E.1999).İntensiv rəqabətin olduğu biznes mühitini yaratmaq üçün hökumət infrastrukturun, təhsilin, sağlamlığın və digər sahələrin inkişafını təmin edəcək planlar hazırlamalı və həyata keçirməlidir.

M.Porterin rəqabətqabiliyyətlilik haqqındakı nəzəriyyəsi Dünya İqtisadi Forumu tərəfindən istifadə edilmiş və özünün Qlobal Rəqabətqabiliyyətliliyi Hesabatında (GCR) bu anlayışı aşağıdakı kimi izah edilmişdir.

“Rəqabətqabiliyyətlilik ölkənin məhsuldarlığını müəyyən edən faktorların, qərarlarınvə qurumların toplusudur.O, ölkə daxilindəki həyat səviyyəsini və firavanlığı müəyyən edən ölkə məhsuldarlığının rəqabətqabiliyyətliliyinə təsir edən və onu müəyyən edən əsas amildir”

Biznes strategiyasına əsaslanan görüş də müəyyən xüsüsiyyətlərinə görə tənqid olunmuşdur.

Bir ölkənin məhsuldarlığını müəyyən edən göstəriciləri aydınlaşdırmaq və ölçmək çətindir.Məhsuldarlıq anlayışının da rəqabətqabiliyyətlilikanlayışı qədər dəqiq tərifi yoxdur. Digər tərəfdən, bu görüş hökumətin iqtisadiyyatdakı rolunu və dolayısı ilə rəqabətqabiliyyətliliyə olan təsirini düzgün şəkildə ifadə etmir. Hökumətin iqtisadiyyatdakı rolu sadəcə infrastruktur və ictimai layihələrin həyata

keçirilməsindən ibarət deyildir.O eyni zamanda bazardakı uğursuzluqlarını aradan qaldırmaqda dövlətin rəqabətqabiliyyətinə təsir etməsinə imkan yaradır.

Texnologiya və innovasiyaya əsaslanan görüşə görə şirkətlərin texnologiyanin inkişafındakı rolu rəqabətqabiliyyətliliyimüəyyən edən əsas amildir. Bu nəzəriyyə rəqabətqabiliyyətlilik anlayışının iki tərifi olduğunu ifadə edir.

Birinci tərif mikro səviyyədəki rəqabətqabiliyyəti adlanır. Bu tərifə görə mikro səviyyədərəqabətqabiliyyətlilik şirkətlərin texnologiyadan effektiv istifadə və keyfiyyətli məhsulların istehsalı bacarığına əsasən müəyyən edilir. Makroiqtisadi səviyyədə isə rəqabətqabiliyyətliliyi beynəlxalq bazardakı tələblərə uyğun məhsulların istehsal edilməsinə əsasən müəyyən edilir.

Ölkələr və şirkətlər rəqiblərinə nisbətdə özlərinin rəqabətqabiliyyətliliyini müəyyən etməkdə daima maraqlıdırlar.Buna görə də hər hansı bir ölkənin və ya şirkətin rəqabətqabiliyyətliliyini müəyyən edən əsas amillər aydınlaşdırılır və spesifik göstəricilər vasitəsilə onların dünya bazarındakı mövqeyi müəyyən edilir.

Keçmişdə ölkələrin inkişafı onların rəqabət üstünlüyünə əsaslanırdı.Misal üçün,ucuz işçi qüvvəsinin və təbii sərvətlərin mövcudluğu həmin ölkələrə rəqabət üstünlüyü verirdi və bu da inkişafa səbəb olurdu.Lakin müasir biznes cəmiyyətində ölkələrin rəqabətqabiliyyəti biliyə, müasir infrastruktura, texnologiyaya və innovasiyaya əsaslanaraq müəyyən edilir. Bundan əlavə, qloballaşan biznes cəmiyyəti özü rəqabətqabiliyyətliliyətəsir edir və onu müəyyən edir.

Buna görə də, rəqabətqabiliyyətlik müasir biznes cəmiyyətində şirkətlərdən və ölkələrdən beynəlxalq bazara inteqrasiya etməyi və rəqabət aparmağı tələb edir.

M.Porterə görə hər hansı ölkənin rəqabətqabiliyyətliyini müəyyən edən amil, sənaye və biznes fəaliyyətləri arasında güclü əlaqənin olmasıdır. Porterin “Almaz Model vəya Porter rombu ” (Diamond Model of competitiveness) anlayışı ölkənin rəqabətqabiliyyətliyini müəyyən edən dörd əsas amilin mövcud olduğunu diqqətə çatdırır.

- Amil Şəraiti

\- Mövcud işçi qüvvəsinin sayı, bacarığı və xərci;

- Torpaq, odun, su, enerji mənbələri və başqa bu kimi resursların mövcudluğu, keyfiyyəti və istifadə edilmə potensialı;
- Elmi, texniki, bazar haqqındakı bilik resurslarının mövcudluğu;
- Daşınma, kommunikasiya, sağlamlıq, və bu kimi başqa infrastrukturaların mövcudluğu;

- Tələb Şəraiti

- Daxili bazardakı tələblərin təmin edilməsi;
- Daxili bazardakı tələblərin ölçüsü və artımı;
- Ölkə daxilində istehsal edilən məhsulların xarici bazardakı tələbləri qarşılaması

- Köməkçi Sənaye sahələri

- İstehsal üçün tələb olunan xammal materialların digər müəssisələr tərəfindən təmin edilməsi;
- Şirkətlər arasında əməkdaşlığın və koordinasiyanın mövcudluğu;

- Şirkət strategiyası, strukturu və rəqabəti

- Rəqabət aparmaq üçün müəyyən strategiyanın qəbul edilməsi və həyata keçirilməsi;
- Şirkətlərin əldə etmək istədikləri məqsədlərin aydın və realistik olması;
- Daxili bazarda mövcud olan rəqabət səviyyəsi;

M.Porterə görə bu kimi göstəricilər bir şirkətin rəqabətqabiliyyətliyini müəyyən edən əsas amillərdir.

Mövcud araşdırmalar ölkənin və ya şirkətin rəqabətqabiliyyətini ölçmək üçün istifadə edilə biləcək bir neçə göstəricilər müəyyən etmişdir. İqtisadçı, Trabolda görə rəqabətqabiliyyətinin ən əsas göstəriciləri gəlir səviyyəsi və ÜDM-nin inkişafıdır. Bundan əlavə, iqtisadçıya görə ixrac səviyyəsivə ölkəyə daxil olan Xarici Birbaşa İnvestisiyadarəqabətqabiliyyətini ölçmək üçün ən əsas göstəricidir.

Lakin digər bir iqtisadçı olan Lavrinoviçə görə ölkənin rəqabətqabiliyyətini ölçmək üçün iqtisadiyyata təsir etmə potensiali olan xarici amillər nəzərə alınmalıdır. Bunlar müvafiq olaraq aşağıdakı amillərdir:

- Ədliyyə sisteminin müstəqilliyi və effektivliyi

- İnnovasiyaya olan tendensiya
- Korporativ idarəetməforması
- Korrupsiya səviyyəsi
- İqtisadiyyata Dövlət Müdaxiləsinin forması və dərəcəsi

Djogo ve Stanisic tərəfindən həyata keçirilən araşdırmada Avropadakı ölkələrin rəqabətqabiliyyətliliyini ölçmək üçün 6 göstəricidən istifadə edilmişdir (Djogo M.və Stanisic,2016.)Bunlar aşağıdakılardır;

- Ödəniş balansının vəziyyəti
- İşsizlik səviyyəsi
- Əmək haqqı
- Xarici borc
- ÜDM-nin inkişaf səviyyəsi
- İnvestisiya səviyyəsi

Ölkələr və şirkətlər özlərinin rəqabətqabiliyyətliliyini müqayisə etmək üçün müəyyən indekslər yaratmışdır. Bunlar "İsveçrə Rəqabətqabiliyyətlilik İndeksləri" adlanır. Ən çox istifadə olunan növləri aşağıdakılardır.

Birincisi Dünya İqtisadi Forumu tərəfindən yaradılmış "Beynəlxalq Rəqabətqabiliyyətlik İndeksi," ikincisi isə Beynəlxalq İdarəetmə İnstitutu tərəfindən yaradılmış "Rəqabətqabiliyyətlik Skorbord"- u adlanır.Beynəlxalq Rəqabətlilik İndeksinə daxil olan əsas göstəricilər aşağıdakılardır:

- Adam başına düşən ÜDM
- İş səviyyəsi
- Əmək məhsuldarlığı
- Həyat müddəti
- Yoxsulluq səviyyəsi
- Gəlir səviyyəsi
- Dövlət borcu
- Qənaət səviyyəsi

Bu indekslərdən əlavə,İngiltərə özünün "rəqabətqabiliyyətlilik indeksi"-ni inkişaf etdirmiş və müntəzəm surətdə ölkənin rəqabətqabiliyyətliliyini digər ölkələr ilə müqayisə etmişdir. Bu indeksə daxil olan əsas göstəricilər isə iqtisadiyyatın məhsuldarlığını artıran amillərdən ibarətdir.Misal üçün ölkə daxilindəki investisiya səviyyəsi, innovasiya səviyyəsivə biznes fəaliyyətləri.

Digər bir indeks isə Wignaraja və Tayylor tərəfindən inkişaf etdirilən "İxrac Edilmiş Məhsul Rəqabətqabiliyyətlilik İndeksi"dir. Bu indeksin üç əsas komponenti mövcuddur və bunlar aşağıdakılardır:

- Adam başına düşən ixrac edilmiş eksportun dəyəri
- İllik ixrac edilmiş eksportun inkişafi
- Texnologiyaya əsaslanan ixrac edilmiş eksportun ümumi eksporta olan nisbəti

Bu indeks inkişaf etməkdə olan ölkələrin ixrac bazarındakı mövqeyini müəyyən etmək üçün yaradılmışdır.

Digər bir indeks isə "Texnologiya İndeksi" adlanır.Bu indeks Wiqnaraxa və İkiara tərəfindən inkişaf etdirilmişdir. Bu indeksin iki əsas kateqoriyası mövcuddur: istehsal bacarığı və əlaqələndirmə bacarığıdır.Birinci kateqoriya özü bir neçə fəaliyyətdən ibarətdir: mövcud məhsulların inkişafı, yeni məhsulların yaradılması, keyfiyyət statusu və s.Digər kateqoriyaya isə alıcılar ilə texnologiya vasitəsilə əlaqə yaradılması və digər şöbələrlə əlaqələr daxildir.Bu indeks şirkətlərə texniki qabiliyyətlərini analiz etməyə və özlərinin rəqabətqabiliyyətliliyini müəyyən etməyəimkan yaradır.Bu indekslərdə ümümi xüsüsiyyət ondan ibarətdir ki,ölkənin rəqabətqabiliyyəti aşağıdakı amillərə əsasən müəyyən olunur;

- Xarici mühitin faydası lazımı infrastrukturun mövcudluğu: məhsulun daşınması, enerji, su və bu kimi resursların mövcudluğu)
- Daxili mühitin faydası (insan resurslarının, texnologiyanın, maliyyə resurslarının mövcudluğu)
- Məhsulların keyfiyyəti (mövcud məhsulların inkişaf etdirilməsi və yeni məhsulların istehsalı)

- Mövcud bazarın xüsusiyyətləri (onun həcmi, rəqabətin səviyyəsi, sərbəst ticarətin mövcudluğu)

## 1.3.Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin əhəmiyyəti

İqtisadi böhrandan sonra dünya iqtisadiyyatı müsbət şəkildə inkişaf etməyə davam edir.Belə ki, 2017-ci ildə dünya ÜDM inkişaf tempi 3.5% artmışdır.Belə bir müsbət inkişafa baxmayaraq, hələdəiqtisadi çətinliklər davam edir. İqtisadi inkişafın qeyri-bərabər paylanması, artan gəlir bərabərsizliyivə ətraf mühitin çirklənmələrə məruz qalması hal hazırda iqtisadiyyatın ən əsas problemidir. Bu kimi problemlər keçmişdə qəbul edilmiş iqtisadi qərarların insanların həyatına və ətraf mühitə necə zərər verdiyini açıq şəkildə göstərir.Buna görə artıq diqqət insanların həyatına müsbət təsir edəcək və həyat səviyyəsini yüksəldəcək iqtisadi qərarların verilməsinə yönəlmişdir. Bu məqamda rəqabətqabiliyyətlilik insanları nəzərə alan və onlara üstünlük verən iqtisadi inkişafa təsir edəcək ən əsas amillərdən biri kimi ön plana çıxır. Rəqabətqabililiyyətlilik insanların həyatının inkişafına yönələn resursların yaranmasına və inkişaf etməsinə birbaşa təsir edən amildir. Bu anlayış təhsilin, təhlükəsiz,sağlam həyatın və adam başına düşən gəlirin inkişaf etməsinə təsir edir.

Rəqabətqabiliyyətlilik ölkənin iqtisadi inkişafına və məhsuldarlığına təsir edən əsas amillərdən biridir. Onun əhəmiyyətini müəyyən etmək məqsədilə "Dünya İqtisadi Forumu" rəqabətqabiliyyətliliyin təsir etdiyi sahələri müəyyən etmiş və həmin amillərə əsasən öz indeksini "Qlobal RəqabətqabiliyyətlilikÍndeksi"ni yaratmışdır (Dünya İqtisadiyyat Forumu.2018).

Rəqabətqabiliyyətliliyin təsir etdiyi amillər aşağıdakılardır:

- İnfrastrukturuninkişafı (nəqliyyat, enerjinin istehsalı, kommunikasiya sisteminin olması və digərləri)
- Səhiyyənin və təhsilin inkişafı (sağlam, savadlı və qabiliyyətli işçi qüvvəsi)

- Maliyyə bazarının inkişafı (məzənnənin stabilləşməsi və məsrəflərin azalması)
- Texonologiya və innovasiyanın inkişafı (məhsulların inkişafı və yeni məhsulların istehsalı)
- Rəqabətə əsaslanan biznes mühitinin yaranması

Rəqabətqabiliyyətlilik ölkə məhsuldarlığına təsir edən ən vacib amillərdən biridir.

Beynəlxalq bazarda, rəqabətin artması və alternativ məhsulların mövcudluğu, ölkələrin rəqabətqabiliyyətliliyinin artırması üçün mühüm şərait yaratmışdır.Çünki, beynəlxalq bazarda rəqabətqabiliyyətlilik olmadan fəaliyyət göstərmək və inkişaf etmək mümkün deyildir.Buna əsas səbəb rəqabətqabililiyyətliliyin ölkə məhsuldarlığına birbaşa təsiri ilə əlaqədardır.

İnkişaf etməkdə olan ölkələrin çoxunun rəqabətqabiliyyətliliyi aşağıdır,bu onların məhsuldarlığının aşağı səviyyəyə düşməsinə zəmin yaradır,çünki istehsal edilən məhsullar beynəlxalq bazarda kifayət qədər alıcının diqqətini toplamır və nəticədə məhsuldarlıq aşağı düşür.

İstehsal edilən məhsulun keyfiyyəti, həcmi və istehsal prosesi onun dünya bazarındakı rəqabətqabiliyyətliliyini müəyyən edir.Rəqabətqabiliyyətliliyi az olan ölkələrin isə istehsal etdikləri məhsulu dünya bazarında satmaq imkanı azalır və nəticədə ölkənin məhsuldarlığı aşağı düşür. Bu isə ölkə daxilindəki həyat səviyyəsinə və insanların yaşam tərzinə birbaşa təsir edir. Bundan əlavə rəqabətqabiliyyətlilik ölkənin iqtisadi inkişafına da təsir edir. Belə ki, məhsuldarlığın artması xərclərin azalmasına, innovasiyanın inkişafına, məhsul keyfiyyətinin və həcminin artmasına və dolayısı ilə ölkə iqtisadiyyatının inkişafına təsir edir(Carvalho L.vəVasconcellos M.2012).Bu səbəblə rəqabətqabiliyyətliliyin artırılması ölkədə iqtisadiyyatın, həyat səviyyəsinin, innovasiya və texnologiyanın və infrastrukturun inkişafina birbaşa təsir edir.Mühüm iqtisadi və sosial əhəmiyyətinə görə, rəqabətqabiliyyətini artırmaq ölkələrin ən vacib strategiyasına çevrilmişdir. Klassik nəzəriyyəyə əsasən ölkənin rəqabətqabiliyyətliliyini artırmaq

üçün iki yol mövcuddur. Bunlar insan kapitalına investisiya yatırmaq və ticarəti inkişaf etdirməkdir.

Keynsçi iqtisadi nəzəriyyəsi isə rəqabətqabiliyyətliliyi artırmağın ən vacib yollarından birinin dövlətin bu sahədə həyata keçirdiyi iqtisadi siyasətdən və islahatlardan asılı olduğunu ifadə edir.Keynsçi iqtisadi nəzriyyəyə əsasən dövlət tərəfindən verilən “subsidiyalar” və vergi “güzəştləri” şirkətlərin məhsuldarlığına müsbət təsir edir və onların rəqabətqabiliyyətliliyini artırır.

Yeni iqtisadi inkişaf nəzəriyyəsinə görə isə ölkələrin rəqabətqabiliyyətliliyini müəyyən edən amillər aşağıdakılardır (Kordalska, A. və Olcyzk, M.2015 )

- Qapalı ticarətdə açıq ticarətə keçid (dünya bazarına inteqrasiya)
- Xarici Birbaşa İnvestisiyanın artımı
- Tədqiqat və İnkişaf proqramları üçün investisiya
- İnsan kapitalını inkişafı üçün lazımi investisiya (təhsil və bacariq səviyyəsinin inkişafı)

Azərbaycan həyata keçirilmiş iqtisadi islahatlar nəticəsində özünün rəqabətqabiliyyətliliyini inkişaf etdirmiş və Global Rəqabətlilik İndeksinə (GCİ) əsasən 140 ölkə arasında rəqabətqabiliyyətliliyinə görə 2018-ci ildə 25-ci yerə irəliləmişdir(Dünya İqtisadiyyat Forumu,2018).Belə ki,Azərbaycan 2017-cı ildə rəqabətqabiliyyətliyik indeksinə görə 35-ci ölkə hesab edilirdi. Bu indeksə görə Azərbaycanın rəqabətqabiliyyətliliyi ciddi şəkildə inkişaf edir. Belə ki, 2018-ci ildə Azərbaycanda makroiqtisadi mühit, sağlamlıq və təhsil, infrastruktur və qurumlar inkişaf etmiş və nəticədə, Azərbaycan 2017-ci illə müqayisədə on pillə irəliləyərək 25-ci yerdə qərarlaşmışdır.

Bundan əlavə, Azərbaycanda 2010 və 2016-cu illər arasında ÜDM orta hesabla 15.6% artmışdır .Azərbaycanın 2025-ci ilə qədər olan Strateji Yol Xəritəsinə əsasən Azərbaycan dövləti vətəndaşların həyat səviyyəsinin artmasına və məhsuldarlığının inkişafına ciddi şəkildə yanaşacaq və qeyri-neft sektorunun rəqabətqabiliyyətinin artmasına şərait yaradacaqdır. Bu məqsəd ilə vergidən toplanmış gəlirlər maksimum səviyyədə sərfəli şəkildə istifadə ediləcək və

makroiqtisadi sabitlik yaradılacaqdır. Azərbaycan Respublikasının Milli İqtisadiyyat üzrə Strateji Yol Xəritəsinə əsasən, qeyri-neft bölməsinin inkişafı ölkənin rəqabətqabiliyyətini artırmaq üçün ən stratejik amillərdən biridir.

Strateji yol xəritəsi sadəcə neft və qeyri neft bölməsinin inkişafına yox, ümumiyyətlə, Azərbaycanın ümumi iqtisadi inkişafı üçün Cənab Prezident İlham Əliyev tərəfindən qəbul edilmişdir.Strateji yol xəritəsi haqqında aşağıda bəzi məqamları qeyd etmək istəyirəm.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli Fərmana əsasən təsdiq olunan milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə 12 strateji yol xəritəsində neft və qaz sənayesi, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq,ağır sənaye və maşınqayırma, ixtisaslaşmış turizm, logistika və ticarət, mənzil təminatı, peşə təhsili və təlimi, maliyyə xidmətləri, telekommunikasiya və informasiya texnologiyaları və kommunal xidmətlər sektorları öz əksini tapmışdır.

Həmin sənədlərdən biri olan "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə ölkədə kiçik və orta sahibkarlığın (KOS) vəziyyəti təhlil edilmiş, xüsusilə,bu sahədə görülmüş işlər, həyata keçirilmiş islahatlar, mövcud statistika barədə ətraflı məlumat verilib. Həmin yol xəritəsində 2020-ci ilədək strateji, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əhatə edilib.Yol xəritəsində adıçəkilən baxışlarda nəzərdə tutulan məqsədlərə nail olmaq üçün 5 strateji hədəf müəyyən edildi. Bu strateji hədəflərə KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi,onların beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırmaq və s. aiddir. Hər bir hədəf üçün prioritetlər, onların əsaslandırılması, həmçinin həyata keçirilməsini təmin etmək məqsədilə görüləcək tədbirlər əhatə olunmuşdur.Strateji hədəflərə nail olunmasını təmin edəcək tədbirlər planı da təsdiq edilmişdir

# II Fəsil AZƏRBAYCAN İQTİSADİYYATININ BEYNƏLXALQ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN MÜASİR VƏZİYYƏTİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1.Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi

Sovet İttifaqının dağılmasından sonra Azərbaycan iqtisadi cəhətdən tənəzzül dövrü yaşadı. Buna əsas səbəb isə ölkənin uzun müddət planlı iqtisadiyyat əsasında fəaliyyət göstərməsi və nəticədə bazar iqtisadiyyatı ilə bağlı hər hansı bir təcrübəsinin olmaması idi(Vüsətov T.2016).Sovet İttifaqı dövründə Azərbaycanda əsasən neft sənayesi inkişaf etdirilmişdi,çünki ölkə İttifaqın əsas enerji təminatçısı idi.Bu səbəblə,İttifaq dağıldıqdan sonra Azərbaycan iqtisadiyyatı beynəlxalq rəqabətdə bir neçə çətinkliklərlə üzləşdi.

Azərbaycan 1990-cı illərdə iqtisadi baxımdan beynəlxalq bazarda rəqabət aparmaq qabiliyyətində deyildi.Buna səbəb ölkədə istehsal edilən kənd təsərrüfatı və sənaye məhsulları həm kəmiyyəthəm də keyfiyyət baxımından beynəlxalq bazardakı tələblərə uyğun gəlmirdi(Vüsətov, T.2016).

Azərbaycan Respublikası 1992-ci ildən etibarən bazar iqtisadiyyatına keçdi və nəticədə,beynəlxalq bazarda rəqabətqabiliyyətini artırmaq üçün bir neçə islahatlar keçirdi.Belə ki, ticarət və istehsal proses liberallaşdırıldı, yeni valyuta sistemi yaradıldı, maliyyə bazarını tənzimləmək məqsədi ilə Milli Bank yaradıldı və onun haqqında qanun qəbul edildi, özəlləşdirmə prosedurunu həyata keçirmək məqsədi ilə Dövlət Əmlak Komitəsinin əsası qoyuldu(Vüsətov T.2016).Heydər Əliyevin 1993-cü ildə yenidən prezident seçilməsindən sonra ölkədəki bir çox iqtisadi problemlər həll edildi və Azərbaycan intensiv rəqabətin mövcud olduğu beynəlxalq bazardan daha çox mənfəət əldə etməyə başladı. Belə ki, Azərbaycanın iqtisadiyyatının inkişafına əngəl törədən ən əsas amillərdən biri Ermənistan ilə olan müharibə idi. 1994-cü ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Ermənistan ilə atəşkəs elan edildi. Belə bir şəraitdə Azərbaycan xarici investorlar üçün siyasi cəhətdən sabit və mənfəətli bir mühitə çevrildi və beləliklə,1994-cü

ildə Ümummlli lider Heydər Əliyev "Əsrin Müqaviləsi"nin imzalanmasına nail oldu.Nəticədəisəölkənin maliyyə bazarı daha da sabitləşdi(Vüsətov T.2016).

Bu müqavilə ilə Azərbaycan Respublikası ölkənin neft resurslarından gələn gəlirin 80 faizini əldə edərək, həmin gəlirləri ölkənin rəqabətqabiliyyətini artırmaq üçün istifadə etdi.Keçmişdəki çətinlikləri aradan qaldırdıqdan sonra Azərbaycan beynəlxalq bazarda özünün rəqabətqabiliyyətini yüksək templə artırmaqda davam etmişdir. Belə ki, 2004 və 2015-ci illər arasındakı tarix intervalında Azərbaycanda illik ortalama 10,6 faiz iqtisadi artım müşahidə edilmiş və nominal ÜDM isə 7,6 dəfə artmışdır (Strateji Yol Xəritəsi.2016.s.9). Görülmüş iqtisadi islahatların nəticəsində Azərbaycan Respublikasında iqtisadiyyat ciddi şəkildə inkişaf etmiş və ölkə dünya bazarında söz sahibi halına gəlmişdir.

Dünya İqtisadi Forumunun 2016 və 2017-ci illər üçün verdiyi Qlobal Rəqabətlilik Hesabatına görə Azərbaycan Respublikası özünün iqtisdai islahatlarına görə dünya bazarında ciddi şəkildə irəliləmişdir.Belə ki, həmin forumun 2006-ci ildəki hesabatında Azərbaycan 138 ölkə arasında 64-cü yerdə qərarlaşmışdısa, 2018-ci ildə ölkə dünya rəqabətqabiliyyətliliyinə görə 137 ölkə arasında 35-ci pillədə qərarlaşmışdır.Bundan əlavə, ölkələrin rəqabətqabiliyyətliliyini müəyyən edən digər göstəricilər üzrə də Azərbaycan Respublikası ciddi irəliləyişlər əldə edib. Belə ki, 2018-ci ildə biznesin inkişafı üçün lazım olan infrastrukturun göstəricisinə görə ölkə 55-ci və əmək bazarının keyfiyyəti və səmərəliliyinə görə isə 26-cı mövqedə qərarlaşmışdır (Dünya İqtisadiyyat Forumu 2018).

Ölkənin iqtisadi artımın ən əsas göstəricilərindən biri ixracdır, çünki ölkə daxilində istehsal edilən məhsulların dünya bazarına ixracı həmin ölkənin dünya bazarında rəqabətqabilliyyətinin artmasına və daha çox mənfəət əldə etməsinə şərait yaradır. Təkcə, 2018-cü ildə Azərbaycan Respublikasında məskunlaşan rezident və qeyri-rezidentlər tərəfindən toplam dəyəri 21828,6 milyon ABŞ dolları olan ticarət əməliyyatları həyata keçirilmişdir(Hacıyev F.2018).Bu əməliyyatların 70,4 faizini ixrac və 29,6 faizini isə idxal olunan məhsullar təşkil etmişdir. Bu göstərici 1990-cı illərdə isə çox aşağı idi, çünki ölkənin istehsal potensialı xeyli

aşağı idi. Buna səbəb isə Sovet İttifaqı dövründəki enerji resurslarına olan tələb olmuşdur.Belə ki,Azərbaycan Sovet İttifaqı dövründə enerji təminatına fokuslanmış və kənd təsərrüfatı və sənayenin digər sahələrindəki istehsal potensialından istifadə etməmişdi.

2017-ci ildə Azərbaycan Respublikası ilə dünyanın 180 ölkəsi arasında ticarət əməliyyatı baş tutmuşdur. Qeyri-neft sektorunda istehsal edilən məhsulların həmin ildə xaricə ixracı nəticəsində 855 milyon ABŞ dolları dəyərində gəlir daxil olmuşdur (Hacıyev F.2018,s.33). Təkcə 2016-cı illə müqayisədə bu göstərici 18,7 faiz çox olmuşdur.Bu isə onu göstərir ki,ölkənin xarici bazardakı fəaliyyəti inkişaf edir və özünün rəqabətqabiliyyətliliyini daha da gücləndirir. Belə ki, xarici ixracın artmasına əsas səbəb daxildə istehsal edilən məhsulların həm keyfiyyəti həm də qiyməti ilə əlaqədardır. Azərbaycan özünün istehsal potensialını effektiv investisiyalar və lazımı infrastrukturun yaradılması vasitəsilə son 15 ildə ciddi şəkildə artırmışdır.

İxrac edilən məhsulların ixrac göstəricisinə baxdıqda iqtisadiyyatın bir neçə sahəsindəki ixrac səviyyəsinin ciddi şəkildə artdığı müşahidə edilir. Belə ki, 2012 və 2016-cı illər arasında ölkə daxilində istehsal edilən diri heyvan və heyvan mənşəli məhsulların ixrac dəyərində ciddi artım müşahidə edilmişdir. Həmin tarix intervalında ən ciddi artımın müşahidə edildiyi ixrac məhsulu bitki mənşəli məhsullar olmuşdur.

**Cədvəl 1:Azərbaycanda ixrac əmtəə strukturunun dinamikası (Milyon ABŞ Dolları)**

| **İxrac edilən məhsulların adları** | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|
| **Diri heyvan və heyvan mənşəli məhsulların ixracı** | 0,7 | 1,8 | 3,3 | 2,3 | 4.2 |
| **Bitki mənşəli məhsulların ixracı** | 308,1 | 301,7 | 331,1 | 335,8 | 386,6 |
| **Toxuculuq məmulatlarının ixracı** | 52,6 | 58,2 | 32,9 | 33,2 | 39,7 |

**Mənbə:** İqtisadi statistik tədqiqatlar
http://www.elibrary.az/

Bu kimi məhsulların ixracındakı artım onu göstərir ki,xarici bazarda Azərbaycanda istehsal edilən məhsullara tələb artmaqdadır və ölkəyə digər

istehsalçı ölkələrlə müqayisədə ciddi rəqabət üstünlüyü yaradır.Ölkənin rəqabətqabiliyyətliliyini müəyyən edən digər bir amil isə ölkədəki insan kapitalının vəziyyətidir.Dünya İqtisadi Forumunun 2015-ci ildə hazırladığı İnsan Kapitalı İndeksinə görə Azərbaycan Respublikası insan kapitalının keyfiyyətinə görə 124 ölkə içərisində 63-cü mövqedə qərarlaşmışdır("Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi Üzrə Strateji Yol Xəritəsi".,2016.s.25). Bu indeksin verdiyi məlumata görə 2015-ci ildə Azərbaycan Respublikasında ən ixtisaslı və keyfiyyətli insan kapitalı yaşlı nəsildir. Ölkədə insan kapitalının 36,7 faizi kənd təsərrüfatı sahəsində işləyir. Lakin, bu sahədə ixtisaslı kadr çatışmazlığı mövcuddur. Belə ki, 2014-cü ildə ölkədə ali və orta təhsil alan 218690 tələbədən, çox az qismi cəmi 2658 nəfər tələbə kənd təsərrüfatı sahəsi üzrə təhsilini davam etdirib(Strateji Yol Xəritəsi.2016.s.23).Bu da o deməkdir ki,ki ayrı ölkənin ən vacib sahələrindən biri olan kənd təsərrüfatına gənclər arasında maraq azdır, baxmayaraq ki, ölkə əhalisinin əsas məşğulluq sahələrindən biri kənd təsərrüfatıdır.

Son illərdə dünya neft bazarında neftin qiymətindəki ciddi dalğalanmalar Azərbaycan iqtisadiyyatınada təsir etmişdir. Belə ki, ölkə iqtisadiyyatının əsas gəlir və investisiya mənbəyi olan neftin qiymətindəki azalma, ölkənin diverfikasiya siyasətini inkişaf etdirməsinə və nəticədə, dünya bazarındakı mövqeyini və rəqabətqabiliyyətini artırmasına şərait yaratmışdır (İsmayılov F.2015, s.51).

Azərbaycan Respublikasında neft sektorundan sonra ən gəlirli ikinci iqtisadi sahə kənd təsərrüfatıdır. Belə ki, ölkənin 1 585 400 hektar əkinə yararlı torpağı mövcuddur və bu torpağın 90 faizə qədəri tam şəkildə irriqasiya sistemi ilə təchiz edilmişdir.Mövcud su resurslarının həcmi isə 32,3 milyard $m^3$,əkinə yararlı torpaq ərazilərinin lazımi miqdarda və keyfiyyətdə su ilə təmin edilməsinə şərait yaradır.Azərbaycanda mövcud olan münbit torpaq və yetəri su ehtiyatı, ölkəyə kənd təsərrüfatı məhsullarını daha səmərəli və keyfiyyətli şəkildə istehsal etməyə və xarici bazarda rəqabət ütünlüyü əldə etməyə şərait yaradır.

Azərbaycanda təbii resursların mövcudluğu və iqlim müxtəlifliyi regionların müxtəlif iqtisadi sahələr üzrə inkişaf etməsinə səbəb olmuşdur.Bu isə ölkəyə müxtəlif iqtisadi sahələr üzrə rəqabətqabilliyyəti qazanmağa və inkişaf

etdirməyə şərait yaratmışdır. Abşeron iqtisadi rayonu tikinti materiallarının istehsalı sahəsində ciddi inkişaf etmişdir. Belə ki, ölkənin tikinti materiallarına olan daxili tələbatının 80 faizə qədəri bu regionda istehsal edilən hörgü materiallarının, tikinti xammalının, müxtəlif divar materiallarının, beton istehsalının hesabına təmin edilir.

Digər bir iqtisadi zona olan Quba-Xaçmaz iqtisadi rayonu isə ölkədə istehsal edilən toplam kənd təsərrüfatı məhsullarının 8,7 faizini istehsal edir.Bu iqtisadi rayonun əsas istehsal sahəsi kənd təsərrüfatı məhsullarıdır. Heyvandarlıq və bağçılıq bu ərazidə yaşayan əhalinin əsas məşğuliyyət sahəsidir.

Bir digər iqtisadi zona isə Dağlıq Şirvan iqtisadi rayonudur.Azərbaycanın ən mühüm iqtisadi ərazilərindən biri olub,əsasən taxılçılıq, üzümçülük, və heyvandarlıq kimi kənd təsərrüfatı sahələri üzrə ixtisaslaşmışdır.

Digər iqtisadi rayon olan Şəki-Zaqatala iqtisadi rayonu da kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmışdır. Belə ki, bu iqtisadi rayonun ümumi torpaq sahəsinin 43 faizi əkinə yararlıdır və hal-hazırda cəmi 36 faizi əkinçilik üçün istifadə edilir. Digər tərəfdən bölgədəki torpaq sahəsinin 55 faizə qədəri heyvandarlıq üçün əlverişlidir.Bu səbəblə, bölgədəki əhalinin əsas məşğuliyyəti heyvandarlıqdır, çünki heyvanların yetişdirilməsi üçün lazım olan qış və yay otlaqları kifayət qədərdir. Azərbaycan Respublikasının ümumi torpaq sahəsinin 14,3 faizi Gəncə-Qazax iqtisadi rayonun payına düşür. Respublikada istehsal edilən kənd təsərrüfatı məhsullarının 10 faizə qədəri və sənaye məhsullarının 12,5 faizə qədəri bu iqtisadi rayonun payına düşür.Bölgə mineral tikinti materialları baxımından zəngindir. Belə ki, bu iqtisadi rayonda dəmir filizi, mərmər, əhəngdaşı kimi bir sıra təbii tikinti resursları istehsal edilir. Bu iqtisadi zonada da əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı məhsullarının yetişdirilməsi ilə əlaqədardır. Belə ki, heyvandarlıq, əkinçilik və üzümçülük kimi kənd təsərrüfatı sahələri yüksək dərəcədə inkişaf etmişdir.

Lənkəran iqtisadi rayonu isə özünün münbit təbii şəraitinə görə digər iqtisadi rayonlardan fərqlənir. Respublika ərazisinin 7 faizini təşkil edən bu iqtisadi ərazi rütubətli subtropik zona olan Azərbaycanın cənub şərqində yerləşir. Bu bölgə

eyni zamanda sarı, qəhvəyi, dağ çəmən torpaqları ilə zəngin olduğundan kənd təsərrüfatı bu sahədə daha fərqli məcrada inkişaf etmişdir.Əmək qabiliyyəti mövcud olan əhalinin sayı isə 474 min nəfərdir. Subtropik iqlim tipinin mövcud olması və yararlı torpaq sahəsinin bolluğu bu ərazidə çay, çəltik, və müxtəlif paxlalı və dənli bitkilərin yetişdirilməsinə şərait yaradır.

Azərbaycanda mövcud olan iqlim müxtəlifliyi, əkinə və heyvandarlığa yararlı torpaq sahəsinin bol olmasıvə təbii su resurslarının kifayət qədər olması, ölkənin kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmasına və dünya bazarında daha çox rəqabətqabiliyyəti əldə etməsinə şərait yaradır. İqtisadi rayonların kənd təsərrüfatının müxtəlif sahələri üzrə ixtisaslaşması ölkə daxilində istehsal edilən ərzaq məhsullarındakı müxtəlifliyi artırır və nəticədə, daxili bazarın müxtəlif kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinə şərait yaradır.

## 2.2 Müəssisələrin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi

Müəssisənin rəqabətqabiliyyəti,rəqabətli bazar şəraitində səmərəli təsərrüfat fəaliyyətinin və mənfəətli satışın təmin olunması deməkdir.Rəqabətqabiliyyəti göstəricisi hər bir müəssisə üçün onun bütün bölmə və xidmətlərinin işlərini özündə əks etdirən güzgüdür.Xarici bazara rəqabətqabiliyyətli məhsulla çıxmaq,müəssisənin bazarı ələ alması və orada möhkəmlənməsi sahəsində ilkin məqamdır.

Azərbaycanda müəssisələrin rəqabət qabiliyyətliliyinin ölçülməsinin ümumi qəbul olunmuş metodikası mövcud deyildir.Amma buna baxmayaraq hal-hazırda, mövcud olan yanaşmaları iki iri qruplara bölmək olardı:

1) müəssisənin rəqabət qabiliyyətliliyini və onun fəaliyyətinin maliyyə göstəriciləri əsasında tətbiq edilib qiymətləndirilən yanaşmalar;

2) ekspert nümayəndələrinin qiymətləri köməyi ilə müəssisənin və ya xidmət sahəsinin rəqabət üstünlüklərinin qiymətləndirilməsinə əsaslanan yanaşmalar.

Birinci yanaşmaya əsasən ekspertlərin bir çoxu müəəsisə və təşkilatların rəqabətliliyini ölçmək üçün həmin müəssisənin maliyyə-təsərrüfat fəaliyyətləri

əsasında təhlil edirlər. Ancaq maliyyə göstəriciləri xarici mühitin cari vəziyyətində müəssisənin cari vəziyyətini təsvir etdirirlər, rəqabət qabiliyyətliliyi isə dinamik anlayışdır. Bunu nəzərə alaraq da, təkcə maliyyə göstəriciləri xidmət sahəsi müəssisələrinin dəyərləndirilməsi və proqnozu üçün kifayət qədər göstərici deyildir.

Yanaşmaların ikinci qrupu çoxlu sayda müxtəlif növ metod və yollardan ibarətdir. Onlardan bəzi əsas qəbul etdiklərimizi təhlil edək.

ϖ Müəssisələrin rəqabətliliyini dəyərləndirməsində müəssisənin fəaliyyətinin SWOT təhlili,müəssisələrin güclü və zəif tərəflərini həmçinin imkan və təhlükələrini təhlil edir. Təhlilin özəyinin təşkili müəssisənin elə bir strategiyası formalaşdırılır ki, bu da, xarici mühit amillərinin təsirini nəzərə almaqla müəssisənin imkanlarından istifadə olunmasına imkan verir.

ϖ Mak-Kinsi «7S» modeli - bunun köməkliyi ilə müəssisənin daxili imkanlarını, onların rəqabət güclərinə əks təsir göstərmə baxımından qiymətləndirilməsi həyata keçirilir. Mak-Kinsin «7S» modelində aşağıdakı şərtlər göstərilmişdir: strategiya ,vərdiş, bacarıq, birgə dəyərlər, struktu, işçi heyəti, system, stil, üslub.

ϖ Müəssisənin biznes sahəsində mövqeləşməsi matrisası - BCG matrisası ilə oxşar olaraq, hər bir müəssisə matrisanın xanalarından birində yerləşdirilir ki, burada X oxu üzrə ekstrapolyasiya olunmuş rəqabət mövqesini (güclü, zəif), Y oxu üzrə isə müəssisənin ölçüsünü (iri, böyük olmayan) əks etdirir.

ϖ Mak-Kinsi matrisası - Əvvəlki matrisa ilə oxşar qurulan, lakin xırda miqyas bölgüsünə malik olan.

ϖ Rəqabətdə olan firmaların rəqabət yerini qiymətləndirilməsi üçün strateji qruplar xəritəsi - Əvvəlki metodlar kimi, bu metod, mövcud olan rəqibləri «rəqabət aktivliyinin eyni üslub» mövqeyi üzrə bölüşdürür.Bu metodlar sahənin qısamüddətli perspektivə istiqamətlənmiş müəssisələrinin müqayisə olunmasına imkan verirlər və amillərin az bir sayını nəzərə alırlar.Müəssisənin fəaliyyətinin ballarla qiymətləndirilməsinə əsaslanan qiymətləndirici və hesablama metodları, müəssisənin, sahənin müəssisələri arasında reytinqini müəyyən etməyə imkan

verir. Ekspert qiymətləndirilməsinə əsaslanırlar və rəqibləri müqayisə etməyə imkan verirlər, lakin riyazi metodların tətbiqini tələb edirlər, tətbiq üçün çətindirlər və bahalıdırlar.

Qeyd etmək lazımdır ki, bu metodların əksəriyyəti, bütün sahələrdə fəaliyyət göstərən bütün müəssisə qrupları üçün işlənib hazırlanmışlar. Bu metodların bir çoxları müəssisənin hər hansı bir fəaliyyət sahəsini qiymətləndirirlər, müəssisənin rəqabətqabiliyyətliliyini malın (xidmətin) rəqabət qabiliyyətliliyinə və yaxud onun fəaliyyətinin rəqabət qabiliyyətliliyinə bərabər edirlər.

Azərbaycan Respublikasında iqtisadiyyatın ən mühüm sahələrindən biri sənayedir.Belə ki, ölkədə bu sahənin istehsal potensialı son illərdə ciddi şəkildə artmışdır. Əgər 2014-cü ildə bütün sənaye sahəsində istehsal edilən məhsulların həcmi 32110.3 milyon manat təşkil etmişdisə, bu göstərici 2017-ci ildə artaraq 39892.5 milyon manat təşkil etmişdir. Bu sahədə ən çox istehsal payı qeyri-dövlət sektorunun payına düşmüşdür. Belə ki, qeyr-dövlət sektorunun sənaye sahəsindəki emalının həcmi 32177.9 milyon manat təşkil etmişdir.Bu isə dövlət sektorunun sənayedəki payı ilə müqayisədə olduqca çoxdur.

Sənayenin ölkə iqtisadiyyatına təsir edən ən mühüm sahəsi isə mədənçıxarma sənayesi olmuşdur. Belə ki, təkcə 2017-ci ildə bu sahənin ölkə sənayesinə ümumi xeyri 28033.5 milyon manat təşkil etmişdir . Mədənçıxarma sənayesinın ən vacib və gəlirli sahəsi isə neft və qaz hasilatı olmuşdur. Belə ki,2017-ci ildə sənayenin mədənçıxarma sahəsinin bu sahədən əldə edilər gəlirin həcmi 24374.9 milyon manat təşkil etmişdir.

Neft və qaz istehsalı sənayesinin ən vacib müəssisələrindən biri Azərbaycan Dövlət Neft Şirkətidir (SOCAR- State Oil Company of Azerbaijan Republic). Əgər Azərbaycan Respublikasında 2018-ci ildə 38814 min ton neft istehsal edilmişdisə, SOCAR şirkətinin payına 7542 min ton neft istehsalı düşmüşdür. Bu şirkət eyni zamanda ölkənin qaz istehsalında da mühüm yer tutur. Əgər Azərbaycanda 2018-ci ildə qaz istehsalı 30490 milyon $m^3$ təşkil etmişdisə, bu istehsalın 6525 milyon $m^3$ SOCAR şirkətinin payına düşmüşdür.

**Cədvəl 2: Sənaye məhsullarının həcmi (Milyon Manat ilə)**

| | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Bütün sənaye | 32110.3 | 26369.4 | 32300.2 | 39892.5 |
| a. Dövlət sektoru | 6 747.6 | 6228.0 | 6328.4 | 7714.6 |
| b. Qeyri-dövlət sektoru | 25362.7 | 20141.4 | 25971.8 | 32177.9 |
| Mədənçıxarma sənayesi | 21980.9 | 16362.3 | 21191.9 | 28033.5 |
| a.Xam neft və təbii qaz hasilatı | 20976.7 | 14723.3 | 18853.0 | 24374.9 |
| b.Metal filizlərinin hasilatı | 55.0 | 87.4 | 127.6 | 262.1 |
| c.Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin | 900.2 | 1497.8 | 2173.8 | 3337.2 |
| Emal sənayesi | 8060.6 | 7880.4 | 8899.5 | 9723.5 |
| a.Qida məhsullarının istehsalı | 2422.0 | 2307.6 | 2964.7 | 2999.8 |
| b.İçki istehsalı | 220.2 | 197.7 | 223.9 | 263.4 |

**Mənbə:** Dovlət statistika komitəsi, https://www.stat.gov.az/source/industry/

Belə ki, bu neft şirkətinin gələcəkdə Ümid platformasından illik 900 milyon $m^3$ qaz istehsal etməsi planlaşdırılır.

Azərbaycan Respublikasında mədənçıxarma sənayesindən əlavə emal sənayesi də inkişaf etməkdə və ölkənin rəqabətqabiliyyətinə müsbət təsir etməkdədir. Əgər 2014-cü ildə emal sənayesində istehsal edilən məhsulların ümumi dəyəti 8060.6 milyon manat təşkil etmişdisə, bu göstərici 2017-ci ildə artaraq 9723.5 milyon manat təşkil etmişdir. Sənayenin bu sahəsinin ən perspektivli sektorlarından biri içki istehsalıdır. Belə ki, ölkədə mövcud olan iqlim, torpaq və su şəraiti emal sənayesinin inkişaf etməsinə və xüsusilə içki istehsalının artmasına gətirib çıxarmışdır. Əgər 2014-cü ildə ölkə daxilində emal edilmiş içkilərin dəyəri 220.2 milyon manat idisə, 2017-ci ildə bu dəyər artaraq 263.4 milyon manat təşkil etmişdir.Sənayenin içki istehsalı sahəsində fəaliyyət göstərən ən mühüm müəssisələrdən biri Göygöl Şərab Zavodudur. Bu müəssisə özünün istehsal potensialını artırmaq məqsədilə məhşur italyan şirkəti olan TechnoFood Group ilə müqavilə bağlamışdır.Bu şirkət Göygöl Şərab Zavodunu müasir texnologiyalar ilə təmin etmişdir. Belə ki, təkcə 2017-ci ildə italyan şirkəti GŞZ-nu DPN-25 üzüm əzən və ayıran maşın, və onu sıxan VS 150 tipli texnoloji

avadanlıqla təmin etmişdir . Şərab Zavodu Azərbaycanın Göygöl şəhərində 570 hektarlıq ərazini əhatə edir və bu ərazidən 2016-cı ildə təxminən 230 min ton üzüm yığılıb və təxminən 142 min lit üzüm şirəsi əldə edilib(Göygöl ŞərabZavodu – "Şərab İstehsalı".2019). Əldə edilmiş üzüm şirəsindən Karabakh və Göygöl şərabları istehsal edilmişdir.Beləliklə, Azərbaycanda 2014 və 2017-ci illər ərzində sənaye sahəsində ciddi inkişaf müşahidə edilmişdir.Bu da ölkənin beynəlxalq bazarda rəqabətqabiliyyətinin inkişafına müsbət təsir göstərmişdir. Belə ki, sənaye müəssisələrinin həm daxili bazarı, həm də xarici bazarı sənayedə emal edilən məhsullar ilə təmin etməsində müsbət artım müşahidə edilir.

### 2.3. Məhsulların rəqabətqabiliyyətinin təhlili

Azərbaycan Respublikasında iqtisadi artımı təmin edən ən əsas sahələrdən biri sənayedir. Belə ki, sənaye iqtisadi istehsal sahəsi olub, digər iqtisadi sahələrin də inkişafına müsbət təsir edir. Kənd təsərrüfatı və hasilat sahəsi ilə müqayisədə sənaye ölkənin iqtisadi artımı üçün daha dayanıqlı və effektiv inkişaf istiqaməti verir. Buna əsas səbəb isə kənd təsərrüfatı və hasilat sənayesindəki istehsal səviyyəsinin ancaq torpaq sahəsi və təbii resursların mövcudluğundan və münbitliyindən asılı olmasıdır.

Azərbaycan Respublikasında sənaye sahəsi daima iqtisadi artımın ən əsas amili olmuşdur. Belə ki, 2005 və 2018-ci illər intervalında sənaye istehsalının ÜDM-də olan payı ciddi şəkildə artmışdır. 2005-ci ildə ölkə sənayesinin yaratdığı əlavə dəyər 2,7 milyard manat olmuşdur və bu göstərici 2018-ci ildə 6,4 dəfə artaraq 17,3 milyard manata çatmışdır.Bu periodda, sənaye istehsalından əldə olunan xalis gəlir 1,9 milyard manatdan 15,8 milyard manatadək qalxmışdır.

Azərbaycan Respublikasında 2000-ci ildə sənaye sahəsindəki ümumi istehsalın dəyəri 1699 milyon manat olmuşdur. Bu göstərici 2017-ci ilə qədər yüksək temptə artmış və nəticədə 39892,5 milyon manata qədər qalxmışdır.

Azərbaycanın digər önəmli iqtisadi sahəsi kənd təsərrüfatıdır.Ölkədə sənaye istehsalından sonra iqtisadi artıma təsir edən ikinci amildir.Belə ki, 2000-ci ildə kənd təsərrüfatı sahəsində istehsal edilən məhsulların ümumi dəyəri 758,9

milyon manat olmuşdusa, 2017-cü ildə bu göstərici artaraq 6580,0 milyon manat olmuşdur. Bundan əlavə ölkədə tikinti və nəqliyyat və rabitə sahələrində də ciddi artım müşahidə edilmişdir. Azərbaycan Respublikasında sənaye, kənd təsərrüfatı, tikinti, və nəqliyyat və rabitə kimi sahələrdəki artım bir başa ölkənin beynəlxalq bazardakı rəqabətqabiliyyətinə təsir edir. Belə ki, məhsul istehsalındakı artım ölkənin dayanıqlı inkişafına şərait yaradır və beynəlxalq bazarı daha çoxlu və daha keyfiyyətli məhsullar ilə təmin etməsinə şərait yaradır. Cədvəldən də göründüyü kimi Azərbaycan Respublikasında əsas iqtisadi sahə sənaye istehsalıdır və 2000 və 2017-ci illər arasında yüksək templə artmışdır. Bu sahələrin artım göstəricilərinə faizlə nəzər saldıqda, sənaye sahəsinin ÜDM-da olan payına da ciddi təsir göstərmişdir.

**Cədvəl 3: İqtisadiyyatın sahələri üzrə məhsul istehsalı (Qiymətlər milyon manat ilə)**

| **İllər** | **Sənaye** | **Kənd Təsərrüfatı** | **Tikinti** | **Nəqliyyat və Rabitə** |
|---|---|---|---|---|
| **2000** | 1699,0 | 758,9 | 308,0 | 567,1 |
| **2002** | 6190,1 | 1145,9 | 1171,6 | 932,1 |
| **2004** | 10731,9 | 1329,3 | 1445,5 | 1242,9 |
| **2006** | 16841,4 | 1854,8 | 1892,0 | 2082,5 |
| **2008** | 23497,0 | 2236,0 | 2800,3 | 2693,8 |
| **2010** | 22021,6 | 2344,6 | 3439,7 | 3160,3 |
| **2013** | 26701,2 | 3057,8 | 6828,9 | 3790,1 |
| **2017** | 39892,5 | 6580,0 | 7565,4 | 4893,2 |

**Mənbə:** Dövlət Statistika Komitəsi,
https://www.stat.gov.az/source/industry/

Belə ki, 2000-ci ildə əvvəlki illə müqayisədə sənayə istehsalının dəyəri ümumi ÜDM-nin 36,1 faizi olmuşdursa, 2017-ci ildə ümumdaxili məhsul dəyəri 46,2 faizə qədər artmışdır.Ölkədə sənaye sahəsindəki istehsal artımı xüsusi rəqabət üstünlüyü yaradır,çünki iqtisadiyyatın digər sahələrinə yetərincə diqqət və investisiya ayrılmasına və istehsal potensialının artırılmasına şərait yaradır. Belə ki, 2000-ci ildə kənd təsərrüfatı sahəsindəki daxili məhsulun dəyəri 16,1 faiz olmuşdusa, əvvəlki, 2017-cü ildə kənd təsərrüfatı məhsullarının ÜDM-dakı dəyəri 6,3 faizə qədər düşmüşdür. Bu isə o deməkdir ki, kənd təsərrüfatı sahəsindəki istehsal artımı digər illərlə müqayisədə azalmaqda davam edir. Halbuki, artan əhali sayını nəzərə aldıqda ölkənin daxili ərzaq tələbatını təmin etməsinə əngəl törədir və beynəlxalq bazara ixrac potensialını azaldır. Bunun da nəticəsində, ölkəyə idxal

olunan ərzaq məhsullarının artımı və daxili bazarın rəqabət üstünlüyünü itirməsi gözlənilən haldır. Eyni vəziyyət nəqliyyat və rabitə sahəsində də müşahidə edilir. Kənd təsərrüfatı və nəqliyyat və rabitə sahəsinin ÜDM-da olan dəyərinin aşağı düşməsi isə birbaşa ölkənin neft istehsalındakı artımı ilə əlaqədardır.

**Cədvəl 4: İqtisadiyyatın sahələrinin ÜDM üzrə dəyəri (Faizlə)**

| **İllər** | **Sənaye** | **Kənd Təsərrüfatı** | **Tikinti** | **Nəqliyyat və Rabitə** |
|---|---|---|---|---|
| **2000** | 36,1% | 16,1% | 6,5% | 12,0% |
| **2002** | 49,4% | 9,2% | 9,4% | 7,4% |
| **2004** | 57,3% | 7,1% | 7,7% | 6,6% |
| **2006** | 59,5% | 6,5% | 6,7% | 7,3% |
| **2008** | 58,5% | 5,5% | 7,0% | 6,7% |
| **2010** | 51,8% | 5,3% | 8,1% | 6,7% |
| **2013** | 48,3% | 5,1% | 11,8% | 6,6% |
| **2017** | 46.2% | 6.3% | 10.9% | 6.3% |

**Mənbə:**Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/st_units/

Sənaye sahəsində 2000-ci illə müqayisədə 2017-ci ildə məhsul həcmi 3,3 dəfə artmışdır. Sənayenin sahələrinə nəzər saldıqda bu artımın əsas səbəbi mədənçıxarma sənayesindəki emal və istehsal prosesindəki inkişafla əlaqədardır. Ümumiyyətlə, 1990-ci illə 2017-cü illəri müqayisə etdikdə mədənçıxarma sənayesinin ölkə sənayesindəki payının ciddi şəkildə artması müşahidə edilir. Belə ki, 1990-cı ildə mədənçıxarma sənayesi ümumi sənayenin 5,3 faizini təşkil edirdisə, 2017-ci ildə bu sənaye bütün sənayenin 70,27 faizini təşkil etmişdir. Bundan əlavə, sənayenin yanacaq və energetika sahəsində də ciddi inkişaf baş vermişdir və bu ölkənin qlobal bazarda rəqabətqabiliyyətinə müsbət təsir göstərmişdir. Belə ki,təkcə 2013-cü ildə ölkədən xaricə ixracın 92,7 faizini neft və neft məhsulları təşkil etmişdir. Bu hal isə ölkənin sənayesinin bir tərəfli inkişafından irəli gələn amil olmuşdur və buna görə də, ölkədə qeyri-neft sektorunun inkişafına ciddi ehtiyac duyulur.

Azərbaycan Respublikası Sovet İttifaqının dağılmasından sonra sənaye sahəsində özəlləşdirmə siyəsəti aparmışdır. Buna görə də, 2000-ci ildə ümumi sənaye məhsullarının 51,6 faizini dövlət istehsal etmişdisə, bu göstərici 2017-ci ilə

qədər ciddi şəkildə düşmüş və toplamda 19.34 faiz təşkil etmişdir . Buna əsas səbəb isə sənaye sahəsinin özəlləşdirilməsi və bu sahədəki istehsalın özəl şirkətlər tərəfindən daha səmərəli və effektiv istehsal ediləməsindən irəli gəlir. Bu vəziyyətdə, regionların mümkün potensialından istifadə edilmədiyi qənaətinə gəlmək olar. Buna görə də sənaye istehsalının ərazi strukturunun dəyişdirilməsi və regionlarda sənaye istehsalının inkişafı və təkmilləşdirilməsi, ölkənin sənaye sahəsində rəqabətqabiliyyətinin inkişafındakı ən əsas amillərdir.

**Cədvəl 5: Sənaye istehsalının ərazi strukturu**

| İqtisadi Ərazi | 2003 | 2007 | 2011 | 2013 |
|---|---|---|---|---|
| **Bakı Şəhəri** | 74,53 | 93,21 | 90,6 | 89,2 |
| **Abşeron İqtisadi Rayonu** | 2,58 | 1,58 | 1,2 | 1,5 |
| **Gəncə-Qazax İqtisadi Rayonu** | 1,72 | 0,87 | 0,7 | 0,9 |
| **Şəki-Zaqatala İqtisadi Rayonu** | 0,19 | 0,19 | 0,2 | 0,2 |
| **Lənkəran İqtisadi Rayonu** | 0,22 | 0,16 | 0,2 | 0,2 |
| **Quba-Xaçmaz İqtisadi Rayonu** | 0,42 | 0,18 | 0,2 | 0,24 |
| **Aran İqtisadi Rayonu** | 6,63 | 2,48 | 2,2 | 2,5 |
| **Naxçıvan İqtisadi Rayonu** | 0,53 | 0,56 | 1,9 | 2,5 |

**Mənbə:**Niftiyev İ.“Azərbaycan sənayesinin rəqabətqabiliyyətliliyinin artırılması yolları” http://unec.edu.az

Sənaye məhsullarının ərazi strukturuna nəzər saldıqda Bakı və şəhər ətrafı bölgələrin ölkədəki ümumi sənaye istehsalındakı payının 2003 və 2013-cü illərdə ciddi şəkildə artmasının şahidi oluruq.

Ölkə sənayesindəki problemlər bu sahədə işləyən işçi qüvvəsinədə ciddi təsir göstərmişdir. Bu sahədə işləyənlərin sayı 1995-ci illə müqayisədə 2013-cü ildə 1,4 dəfə azalmış və nəticədə ölkədə sənaye sahəsində istehsal səviyyəsi müəyyən dərəcədə aşağı düşmüşdür.Ölkə sənayesinin istehsal səviyyəsinə əngəl törədən bir digər amil isə mövcud texnoloji infrastrukturun müasir tələblərə uyğun olmamasıdır. Ölkənin sənaye sahəsində öz potensialını göstərməməsinin və rəqabətqabiliyyətliliyini inkişaf etdirə bilməməsinin ən əsas səbəblərindən biri mövcud müəssisələrin texnoloji cəhətdən yenidən qurulmaması ilə əlaqədardır. Hazırda ölkə ərazisində fəaliyyət göstərən sənaye müəsisələrində fiziki cəhətdən köhnəlmiş texnoloji avadanlıqların 35 faizi təcili dəyişdirilməlidir, çünki bu

avadanlıqların mövcudluğu sənaye istehsalı prosesinin effektiv və səmərəli fəaliyyətinə mənfi təsir göstərir(İbrahimov,M. 2015).

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini müəyyən edən digər iqtisadi bölməsi isə kənd təsərrüfatı sahəsidir. Son illərdə neftdən asılılığı azaltmaq və ölkədə ərzaq təhlükəsizliyini təmin etmək məqsədi ilə iqtisadiyyatın əsas sahələrindən biri olan aqrar sahəyə diqqət ayrılmışdır. Azərbaycanda kənd təsərrüfatına ayrılan diqqət və investisiyaların nəticəsində ölkə daxili bazarını keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək potensialını artırmışdır (İsmayılov, F.2015,s.51). Bunun nəticəsi kimi ölkə ən stratejik ərzaq məhsullarından olan taxıl istehsalında ciddi irəliləyiş əldə etmiş və daxili bazarı öz istehsal potensialı hesabını lazımı keyfiyyətdə və həcmdə taxıl məhsulları ilə təmin edə bilmişdir.

Neft sektoru ilə müqayisədə kənd təsərrüfatı ölkə əhalisi üçün yüksək potensiala malik iş sektorudur. Belə ki, neft sektorunda ümumi əmək qabiliyyəti olan insanların cəmi 1 faizi fəaliyyət göstərirsə, kənd təsərrüfatı ölkədə əmək qabiliyyəti olan əhalinin 40 faizə qədəri üçün işləmək imkanı verir. 2000 və 2016-cü illər intervalında ölkədə kənd təsərrüfatının dəyəri ciddi şəkildə artmışdır. Belə ki, 2000-ci ildəki 758,9 milyon manatdan 2016-cü ildə 3057,8 milyon manata qədər qalxmışdır. 2016-cı ildə təkcə yanvar və iyul ayları arasındakı intervalda istehsal edilən kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 3290,4 milyon manat olmuşdur.Bu aylarda istehsal edilən kənd təsərrüfatı məhsullarının 51 faizini heyvandarlıq və geri qalan 49 faizini isə bitkiçilik sahələri təşkil etmişdir.

Azərbaycan Respublikasında qeyri-neft sektoruna artan maraq nəticəsində kənd təsərrüfatı sahəsində həm kəmiyyət, həm də keyfiyyət cəhətdən istehsal səviyyəsində ciddi artım müşahidə edilmişdir.Hal-hazırda kənd təsərrüfatı sahəsinın rəqabətqabiliyyətliliyi ciddi şəkildə artmaqdadır. Ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinə baxdıqda ölkədə bu sahənin inkişaf etdiyinin və əhalinin lazımi keyfiyyətdə və miqdarda ərzaq məhsulları ilə təmin edilməsində ciddi irəliləyişin baş verdiyinin şahidi oluruq.

Azərbaycan bitkiçilik sahəsində 2010 və 2017-cü illər ərzində inkişaf müşahidə edilmişdir. Əgər 2010-cu ildə dənli və dənli paxlalı məhsulların istehsalı

2000,5 min tondan ibarət idisə, 2017-cü ildə istehsal səviyyəsi 2928,8 min tona qalxmışdır (Cədvəl 2.6). Eyni artım tempi tütün, kartof, tərəvəz, və bostan bitkilərinin istehsalında da müşahidə edilir.

**Cədvəl 6: Bitkiçilik məhsullarının daxili istehsal həcmi (min ton ilə)**

| Bitki Növü | 2010 | 2011 | 2012 | 2013 | 2017 |
|---|---|---|---|---|---|
| **Dənli və Dənli Paxlalı** | 2000,5 | 2458,4 | 2802,2 | 2955,3 | 2928,8 |
| **Tütün** | 3,2 | 3,6 | 4,2 | 3,5 | 5,3 |
| **Kartof** | 953,7 | 938,5 | 968,2 | 992,8 | 913,9 |
| **Tərəvəz** | 1189,5 | 1214,8 | 1216,2 | 1236,3 | 1405,6 |
| **Bostan Bitkiləri** | 433,6 | 478 | 428 | 429,8 | 438,1 |

**Mənbə:**Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/agriculture/

Bu kimi sahələrin istehsal inkişafı ölkənin ərzaq məhsullarının idxalını azaltması və daha çox məhsul ixrac edərək dünya bazarında intensiv rəqabət şəraitində daha çox mənfəət əldə etməsinə şərait yaradır. Kənd təsərrüfatındakı inkişaf ritmi özünü taxıl istehsalında yaxşı göstərir. Belə ki, 2017-ci ildə toplam 977.2 min hektar əkin sahəsindən 2928,8 min ton taxıl məhsulu toplanmışdır. İstehsal edilmiş taxıl məhsullarının 1818.7 min tonu buğdanın payına, 815 min tonu arpanın payına düşmüşdür. Taxıl istehsalında keçən illə müqayisədə ümumi olaraq 2,4 faiz artım müşahidə edilmişdir.

Kənd təsərrüfatının bitkiçilik sahəsindəki artım tempi 2015 və 2016-cı illərdə də müşahidə edilir. Belə ki, 2015-ci illə müqayisədə 2016-cı ildə dənli və paxlalı bitkilərin istehsalında 1,2 faiz, tütünün istehsalında 40 faiz, yaşıl çay yarpağının istehsalında 67,2 faiz, günəbaxanın istehsalında 14,3 faiz, kartofun istehsalında isə 13,9 faiz artım müşahidə edilmişdir. Bitkiçilik sahəsindəki inkişaf tempi ölkənin bu sahədə rəqabətqabiliyyətinin artmasının göstəricisidir. Belə ki, Azərbaycan artıq öz daxili bazarını daxili istehsal hesabına keyfiyyətli ərzaq məhsulları ilə təmin edə və idxal edilmiş məhsullarla daha yaxşı rəqabət apara bilir.

**Cədvəl 7:Bitkiçilik məhsullarının istehsalı (Min ton ilə)**

| Məhsulun adı | 2015 | 2016 | Artma Faizi |
|---|---|---|---|
| **Dənli və Paxlalı Bitkilər** | 2783,8 | 2816,0 | 1,2 |
| **Tütün** | 1,5 | 2,1 | 40 |
| **Yaşıl Çay Yarpağı** | 363,6 | 608,1 | 67,2 |
| **Günəbaxan** | 1,4 | 1,6 | 14,3 |
| **Kartof** | 506,8 | 577,2 | 13,9 |

**Mənbə:**Məmmədova N,"Biznesin innovasiyalı inkişafının əsas istiqamətləri http://unec.edu.az

Azərbaycanda kənd təsərrüfatının digər istehsal sahəsi bağçılıqdır. Qeyri-neft sektorunun önəmi artdıqca meyvə və giləmeyvə istehsalı da ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində və ölkənin rəqabətqabiliyyətinin artmasında böyük rol oynayır. 2012-ci ildə meyvə və giləmeyvə istehsalı 2011-ci illə müqayisədə 44 min ton artmışdır. 2013-cü ildə isə ölkədə meyvə və giləmeyvə istehsalı 5,3 faiz artaraq 852,9 min tona çatmışdır. 2017-cü ildə meyvə və giləmeyvə istehsalı 849,9 min tona düşmüşdür. Buna əsas səbəb isə mövcud olan quraq iqlim şəraitinin istehsala mənfi təsiri olmuşdur.

Hal-hazırda meyvə və giləmeyvə istehsalı ölkə daxilində inkişaf etməkdədir. Əgər 2017-ci ilin yanvar və iyul ayları arasındakı dövrdə meyvə və giləmeyvə istehsalı 179,7 min ton idisə, bu göstərici 2018-cı ilin yanvar və iyul ayları arasında 1,2 faiz artaraq 180,1 min ton olmuşdur. Meyvəçilik sahəsindəki artım da öz növbəsində ölkənin rəqabətqabiliyyətinə müsbət təsir göstərir. Belə ki, ölkəyə daxil olan ərzaq məhsullarına nisbətdə rəqabət üstünlüyü olan bu məhsullara daxili bazardakı yüksək tələb bu sahənin inkişafına şərait yaradır.

Kənd təsərrüfatının ən önəmli sahələrindən olan heyvandarlıq da ölkədə əsas məşğuliyyət sahəsi olub, öz istehsal potensialını artırmaqda davam edir. 2010 və 2017-cü illər intervalında heyvandarlığın əsas sahələri olan ət, süd, yumurta və yun istehsalında artım müşahidə edilir. 2010-cu illə müqayisədə ət istehsalı 2017-cü ildə 253,8 min tondan artaraq 316,8 min tona çatmışdır. Eyni artım tempi digər sahələrdə də müşahidə edilmişdir. Heyvandarlığın artımı ölkənin əsas tələblərindən

biri olan ət məhsullarının daxili bazar hesabına təmin edilməsinə, daha keyfiyyətli və səmərəli ət məhsullarının daxili bazarda rəqabət üstünlüyü əldə etməsinə şərait yaradır. Heyvandarlığın inkişafı ölkənin həm ərzaq təhlükəsizliyinin təmin edilməsi, həm də iqtisadi rəqabətqabiliyyətinin artmasına şərait yaradır. Belə ki, ət məhsullarının ölkəyə idxalı azalır və daxili bazarda münasib qiymətə və keyfiyyətə sahib olan ət məhsulları artır. Hal-hazırda da ölkədə heyvandarlıq inkişaf etməkdədir. Belə ki, 2015-ci ilin yanvar və iyul ayları arasında diri çəkidə toplam ət 256,9 min ton təşkil etmişdir və 2016-cı ildə bu göstərici 2,6 faiz artaraq 263,6 min tona çatmışdır. 2017-ci ildə isə 316,8 min ton təşkil etmişdir. Kənd təsərrüfatının bu sahəsinin inkişafı üçün yüksək potensial vardır, çünki lazımi sayda yay və qış otlaqları, münbit iqlim şəraiti və artan dövlət dəstəyi kənd təsərrüfatının bu sahəsinin istehsal qüvvəsinin gələcəkdə daha da artmasına şərait yaradır.

**Cədvəl 8: Heyvandarlıq məhsullarının istehsalı (Min ton)**

| **Məhsul** | **2010** | **2011** | **2012** | **2013** | **2017** |
|---|---|---|---|---|---|
| **Ət** | 253,8 | 263,7 | 285,6 | 297,9 | 316,8 |
| **Süd** | 1536,2 | 1622,3 | 1719,6 | 1820,5 | 2024,1 |
| **Yumurta** | 1178,6 | 1011,0 | 1226,7 | 1401,5 | 1714,0 |
| **Yun** | 15,6 | 16,2 | 16,5 | 16,8 | 16,0 |

**Mənbə:**Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/source/agriculture/

2017-ci ildə isə 316,8 min ton təşkil etmişdir. Kənd təsərrüfatının bu sahəsinin inkişafı üçün yüksək potensial vardır, çünki lazımi sayda yay və qış otlaqları, münbit iqlim şəraiti və artan dövlət dəstəyi kənd təsərrüfatının bu sahəsinin istehsal qüvvəsinin gələcəkdə daha da artmasına şərait yaradır. Yüksək keyfiyyətə sahib ət və süd məhsullarının ölkə daxilində istehsalı kənd təsərrüfatının rəqabətqabiliyyətinin artırır və daxili bazarda idxal edilmiş məhsullarla müqayisədə rəqabət üstünlüyü yaradır.

# III Fəsil MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI VƏ İSTİQAMƏTLƏRİ

## 3.1.İnnovasiya fəaliyyətinin rəqabətqabiliyyətliliyin yüksədilməsindəki rolu

Müasir dövrdə Azərbaycan Respublikasında iqtisadi inkişaf yeni mərhələsinə daxil olmuşdur və qarşıdakı illər ərzində də bu ikişaf tempinin daha sürətli və davamlı hala gəlməsidə gözlənilən iqtisadi vəziyyətdir. Belə ki, ölkənin hazırki maddi və texniki bazası, mövcud olan uzunmüddətli siyasi sabitliyi, və potensial inkişaf istiqamətləri, gələcəkdə iqtisadi inkişafın daha da intensivləşəcəyindən və ölkənin dünya bazarında rəqabətqabilliyyətinin daha da artacağından xəbər verir. Son illərdə, dövlət tərəfindən həyata keçirilmiş iqtisadi islahatlar ölkədə bazar iqtisadiyyatının inkişafına müsbət təsir göstərmiş və dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirmişdir.Son illərdəki dövlət islahatları nəticəsində ölkədə azad rəqabətə əsaslanan və inkişaf edən biznes mühiti meydana gəlmişdir. Bu da ölkənin rəqabətqabiliyyətinə birbaşa müsbət təsir göstərmişdir. Bu səbəblə, Azərbaycan Respublikasında biznesin inkişafına xüsusi diqqət yetirilmişdir. Biznesin inkişafını və dolayısı ilə ölkənin beynəlxalq bazarda rəqabətqabiliyyətini artırmaq üçün bu sahədə innovasiyaların intensivləşdirilməsinə və stimullaşdırılmasına mühüm ehtiyac vardır.

Ölkədə innovasiya mühitinin intensivləşdirilməsində və stimullaşdırılmasında ən mühüm rol dövlətə məxsusdur. Bu sahədə dövlət tərəfindən həyata keçirilə biləcək iki potensial siyasət vardır. Bunlardan birincisi dövlət tərəfindən innovasiya mühitinin birbaşa intensivləşdirilməsi və stimullaşdırılmasıdır.

Elmi-tədqiqat işlərinin intensivləşdirilməsi üçün dövlət tərəfindən görülə biləcək ən mühüm strategiyalardan biri mövcud dövlət resurslarının müəyyən bir qisminin qrantlar, kreditlər və sifarişlər vasitəsilə bu sahə üzrə paylanılmasıdır. Dövlət tərəfindən həyata keçirilə biləcək digər bir tədbir isə dolayı yolla ölkədəki elmi-tədqiqat işlərinin stimullaşdırılmasından ibarətdir. Elmi nailiyyətləri artırmaq və elmi-tədqiqat işlərinin daha stimullaşdırmaq məqsədilə dövlət vergiləri azalda,

patent tədbiq edə və müəyyən kiçik və stratejik biznes sahələrini qorumaq üçün xüsusi dövlət fondu yarada bilər.Ölkədə innovasiya mühitinin dövlət tərəfindən stimullaşdırılmasının ən vacib vasitələrindən biri maliyyələşdirmə sistemidir.Belə ki, effektiv və səmərəli maliyyələşdirmə sisteminin mövcud olmadığı bir şəraitdə innovasiyaların stimullaşdırılması mümkün deyildir.Buna əsas səbəb isə odur ki, maliyyələşdirmə sistemi vasitəsilə elmi-tədqiqat işlərinə daha intensiv investisiya və maliyyə yönləndirmək mümkün olur.Ölkədə innovasiyanın inkişafını təmin etmək üçün vergi və kredit sisteminin təkmilləşdirilməsinə və elmi-tədqiqat işlərinin həyata keçirilməsi üçün büdcədən kənar maliyyələşdirmə sisteminin yaradılmasına ehtiyac vardır(Qasımov F.H, Əliyev T.N,2013).İnnovasiya mühitinin inkişafı üçün ölkədə mövcud olan maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır. Bu səbəblə aşağıdakı elementlər nəzərə alınaraq maliyyələşdirmə mexanizmi inkişaf etdirilməlidir:

- Elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi və nəticədə, innovasiyaların stimullaşdırılması üçün xüsusi maliyyə-kredit və siğorta təşkilatlarının yaradılması;
- İnnovasiyaların inkişafına ayrılmış vəsaitləri geri qaytarmaq üçün mövcud olan mexanizmlərin təkmilləşdirilməsi;
- Vençur maliyyələşdirmə mexanizminin daha inkişaf etdirilməsi;
- Dövlət qurumlarına və elmi-tədqiqat işlərilə məşğul olan təşkilatlara dövlət akkreditasiyaları vasitəsilə innovasiyaya əsaslanan məhsulların satışından əldə edilən vəsaitlərin 70%-ni elmi-texniki tədqiqatlar üçün maliyyələşdirmə mexanizmi kimi istifadə edilməsi üçün şərait yaradılması;
- Ölkədə yüksək texnoloji tədqiqatların intensivləşdirilməsi məqsədilə layihələrin, sınaqların, və digər innovasiyaya əsaslanan fəaliyyətlərin effektiv şəkildə maliyyələşdirilməsi mexanizminin inkişaf etdirilməsi;
- Ölkədə kənd təsərrüfatı və sənaye sahələrinin inkişafını stimullaşdırmaq məqsədilə innovasiya layihələrinə investisiyaların cəlb edilməsi məqsədilə investorlara potensial risklərə qarşı dövlət zəmanətinin təmin edilməsi;
- İnnovasiyaya əsaslanan texnologiyaların lizinq sisteminin inkişaf etdirilməsi;

- Elmi-tədqiqat işlərinin daha da intensivləşdirilməsi üçün patent sistemin təkmilləşdirilməsi və intellektual mülkün qorunmasının təmin edilməsi;
- İnnovasiya layihələrinin və onları həyata keçirəcək təşkilat və ya şəxslərin müsabiqə vasitəsilə müəyyənləşdirilməsi mexanizminin təkmilləşdirilməsi.

Bu kimi tədbirlərin həyata keçirilməsi, ölkədə innovasiya mühitinin daha da inkişaf etməsinə və nəticədə, innovasiyaya əsaslanan iqtisadi bazarın yaranmasına gətirib çıxaracaqdır.

Azərbaycanda innovasiya mühitin inkişafı üçün müxtəlif dövlət proqramları qəbul edilmişdir. Bunlardan başlıcası isə Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə qəbul edilmiş 2008 və 2015-ci illər ərzində ölkədə yoxsulluq səviyyəsinin azaldılması və davamlı inkişaf məqsədilə qəbul edilmiş dövlət proqramıdır. Bu proqram regionlarda sahibkarlığın inkişaf etdirilməsi məqsədilə innovasiyaya əsaslanan texnologiyaların tətbiqini intensivləşdirmiş və stimullaşdırmışdır(Nargilə. M.,2016.s.65).Azərbaycan innovasiya mühitinin inkişafını qəlizləşdirən ən mühüm problem isə ölkədə innovasiya layihələrinə investisiyaların yatırılması üçün hüquqi əsaslara dayanan güzəştlərin olmaması ilə əlaqədardır. İnnovasiya mühitindəki bu kimi problemlərin aradan qaldırılması və ölkənin biznes mühitinin və rəqabətqabiliyyətinin artırılması məqsədilə 2016-cı ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "İnvestisiya Təşviqi Sənədi" qəbul edilmişdir. Bu sənədin əsas məqsədi ölkədə mövcud olan innovasiya və biznes mühitini daha da inkişaf etdirməkdən ibarətdir. İnnovasiya mühitinin daha da stimullaşdırılması məqsədilə 2015 və 2020-ci illər arasında xüsusi dövlət proqramı həyata keçirilməkdədir. Bu isə ölkədə innovasiya fəaliyyətinin inkişaf etdirilməsinə, sənaye və kənd təsərrüfatı istehsalının artmasına, qeyri-neft sektorunun inkişafına və tərəqqisinə müsbət təsir göstərir.

Azərbaycanda iqtisadiyyatın davamlı inkişafını təmin etmək, innovasiyaya əsaslanan texnologiyaların tədbiqini artırmaq, beynəlxalq bazarda rəqabətqabiliyyətini inkişaf etdirmək, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalını intensivləşdirmək məqsədi ilə ölkənin innovasiya fəaliyyətinin artırılması dövlətin həyata keçirdiyi stratejik məqsədlərdən biridir. Bu məqsədlə

“Azərbaycan 2020: Gələcəyə Baxış” davamlı inkişaf anlayışı yaradılmışdır. Bu anlayışnın əsas inkişaf aspektlərindən biri innovasiya mühitinin təkmilləşdirilməsidir.Buna görə də innovativ iqtisadiyyatın yaradılması və inkişaf etdirilməsi əsas prioritet hədəflərdən hesab edilir. Bu addım öz növbəsində elmi inkişaf ilə istehsal prosesinin inteqrasiyasını təmin edəcək və nəticədə innovasiyaya əsaslanan istehsal prosesi yaradılacaqdır.

İnnovasiya mühitinin inkişafının əsas məqsədlərindən biri ölkədə qeyri-neft sektorunun inkişafını təmin etməkdir. Beləki, Azərbaycan Respublikası Regionlarının “2014-2018-ci İllərdə Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramına” əsasən regionlarda aqrar istehsalın innovasiyaya əsaslanan texnologiyalar və istehsal metodları vasitəsilə inkişaf etdirilməsi nəzərə çarpan məqamlardandır (Nargilə. M,2016.s.67). Bu kimi dövlət proqramlarının nəticəsində, 2014 və 2015-ci illərdə qeyri-neft sektorunda ciddi inkişaf baş vermişdir. Əgər 2014-cü ildə qeyri-neft sektorunun ÜDM-dəki payı hardasa 36189 milyon manat idisə, 2018-ci ildə bu sektorun ÜDM-dəki payı 1.1% artaraq 37670 milyon manat olmuşdur. Bu inkişafın əsas səbəblərindən biri innovasiyaya əsaslanan texnologiyaların və metodların əsasında aqrar istehsalla məşğul olmaqdır.

İnnovasiya fəaliyyətinə və inkişafına xüsusilə sənaye istehsalında böyük önəm verilmişdir. Belə ki, innovasiya fəaliyyətinin inkişafı üçün sənaye sektorunda ciddi miqdarda investisiya ayrılmışdır. Əgər 2013-cü ildə innovasiya məhsulunun dəyəri 883 min manat olmuşdusa, 2014-cü ildə bu göstərici artaraq 1118 min manat təşkil etmişdir. İnnovativ texnologiyaların alınması və tətbiq edilməsi məqsədilə ayrılan investisiya 2013-cü ildə 13 877 000 manat olmuşdusa, bu göstərici artaraq 2014-cü ildə 21 534 000 manat təşkil etmişdir(Dövlət Statistika Komitəsi,2019)/İnnovasiya mühitinin inkişafına əsaslanan dövlət proqramları nəticəsində ölkənin rəqabətqabiliyyəti inkişaf edir.Təkcə, 2018-cü ildə Azərbaycan Respublikasında modern və innovativ texnologiya və avadanlıqlara əsaslanan 250-ə yaxın sənaye müəssisəsi yaradılmışdır. Belə sənaye müəssisələri əsasən Gəncə və Sumqayıtda yaradılmışdır. Bunlar arasında Bakıdakı Norm sement zavodu,

Sumqayıtda Tekstil Parkı və Qəbələdə Gilan Qida şəhərciyi ən əsas sənaye müəssisələridir.

Lakin ölkədə innovasiya mühitinin inkişafına maneə törədən bir sıra amillər vardır:

- Milli pul vəsaitinin kifayət qədər olmaması
- Maliyyə cəhətdən dövlət dəstəyinin kifayət qədər olmaması
- İnnovasiyaya əsaslanan məhsullara olan alıcı tələbatının və ödəniş qabiliyyətinin aşağı olması
- İnnovasiyanın dəyərinin həddindən artıq yüksək olması
- Sənaye və aqrar müəssisələrin innovasiyaya əsaslanan inkişaf potensialının aşağı olması
- İxtisaslı və qabiliyyətli kadrların sayının az olması
- Yeni texnologiyaların funksiyası və istifadəsi barədə sənaye və aqrar müəssisələrdə informasiyanın səviyyəsinin aşağı olması
- Aqrar və sənaye müəssisələrinin innovasiyaya əsaslanan yenilikləri qəbul etməməsi
- İnnovasiya mühitini stimullaşdıran və intensivləşdirən effektiv hüquqi bazanın mövcud olmaması.

Bu kimi problemlər ölkənin innovasiyaya əsaslanan inkişafının qarşısını ciddi şəkildə alır. Belə ki, ölkədə sənaye və aqrar müəssisələrdə müasir texnologiyalar və metodların tətbiqi əsasında fəaliyyət ciddi şəkildə aşağıdır və bu birbaşa ölkənin istehsal potensialına və rəqabətqabiliyyətinə təsir göstərir.

Müasir dövrdə iqtisadi inkişafın və beynəlxalq bazada rəqabətqabiliyyətinin artmasının ən mühüm səbəblərindən biri və bəlkə də birincisi həmin iqtisadiyyatın innovasiya fəaliyyətinin yüksək və effektiv olması ilə əlaqədardır. İnnovasiya mühitinin inkişafı birbaşa ölkənin istehsal potensialına təsir edir, ixrac səviyyəsini artırır, daxili bazarda daha keyfiyyətli məhsulların istehsal edilməsinə şərait yaradır və ümumiyyətlə, ölkənin rəbaqətqabiliyyətinə müsbət təsir göstərir.

Hər bir ölkənin sosial-iqtisadi siyasətinin mühüm aspektlərindən biri həmin ölkənin innovasiya fəaliyyətinin artırılması ilə əlaqədardır. Buna əsas səbəb isə

innovasiya fəaliyyətinin inkişafı rəqabətqabiliyyətli və keyfiyyətli məhsul istehsalına şərait yaradır və ölkənin həm daxili, həm xarici bazarda rolunun artmasına şərait yaradır. İnnovasiyanın inkişafında isə dövlətin rolu danılmazdır, çünki dövlət tənzimləmələri nəticəsində innovasiyanın inkişafı mümkün olur. Dövlət tərəfindən həyata keçirilən innovasiya siyasətinin əsas məqsədi daxildə istehsal edilən məhsulların rəqabətqabiliyyətini artırmaq, ölkənin davamlı və ekoloji cəhətdən effektiv inkişafını təmin etmək və ölkə əhalisinin yüksək keyfiyyətə sahib olan lazımi miqdarda məhsul ilə təmin edilməsindən ibarətdir.

Azərbaycan Respublikasında dövlət tərəfindən həyata keçirilən innovasiya siyasətinin aşağıdakı məqsədləri vardır(A.H.Tağıyev,2012 ,s.5);

- Daxili bazarda istehsal edilən məhsulların rəqabətqabiliyyətini təmin edən innovativ texnologiyaların və metodların səmərəli tətbiq edilməsi üçün münbit şəraitin yaradılması
- Elmi-texniki fəaliyyətin inkişafının, yeni texnologiya və metodların istifadəsi üçün müvafiq strukturun yaradılması
- İqtisadi inkişafın elm və texnika nailiyyətləri vasitəsilə həyata keçirilməsi
- Müasir innovasiyalar vasitəsilə əhalinin keyfiyyətli və səmərəli məhsullarla təmin edilməsini inkişaf etdirmək

Bu kimi prioritet məqsədlərə nail olmaq üçün dövlət tərəfindən aşağıdakı innovasiya ilə əlaqədar məsələlərə nəzər yetirilməli və həll edilməlidir (A.H.Tağıyev,2012,s.5):

- Dövlət innovasiya fəaliyyətinin və siyasətinin prioritet istiqamətləri müəyyən edilməli və həyata keçirilməlidir;
- Dövlət innovasiya fəaliyyətinin inkişafı üçün müvafiq strukturun yaradılmasını təmin etməlidir;
- Dövlət beynəlxalq bazarda innovasiya əsasında istehsal edilən daxili məhsulu müdafiə etməlidir;
- Dövlət innovasiya mühitinin inkişafını təmin etmək məqsədi ilə bu sahənin elm, istehsal, mailyyə və kredit kimi sosial və iqtisadi sferalar ilə inteqrasiyasını təmin etməlidir.

İnnovasiya mühitinin vəziyyəti hər bir ölkənin iqtisadi inkişafının mühüm göstəricisidir.İnnovasiya fəaliyyəti iqtisadiyyatın stabil inkişafına, rəqabətqabiliyyəti yüksək olan məhsul istehsalına və istehsal prosesinin texniki bazasının yenilənməsinə və inkişafına zəmin yaradır. Hazırda ölkədə innovasiya fəaliyyətinə əngəl törədən ən vacib amillərdən biri istehsalla məşğul olan təşkilat və müəssisələrin maliyyə və texniki vəziyyətinin innovasiyanın inkişafına və tətbiqinə uyğun şəraitdə olmamasıdır. Bundan əlavə, ölkənin hazırki iqtisadi vəziyyəti və maliyyə və kredit sisteminin qeyri-stabilliyi innovasiya layihələrinin tətbiqi və reallaşdırılması üçün vacib olan investisayaların cəlb edilməsinə əngəl törədir.

Azərbaycan Respublikasında mövcud olan iqtisadi şəraitdə bir neçə elmi və texniki fəaliyyətlə məşğul olan təşkilatlar öz fəaliyyətlərini dayandırmış və nəticədə, yeni innovasiyaların istehsal edilməsi və daxili bazarda satışa çıxarılması əsaslı şəkildə azalmışdır. Bu səbəbdən, ölkənin milli innovasiya strategiyası yenidən nəzərdən keçirilməli və mövcud iqtisadi şəraitə uyğunlaşdırılmalıdır.Yaradılacaq yeni innovasiya strategiyası ölkənin elmi-texniki potensialını nəzərə alaraq innovasiyaları iqtisadiyyatın stratejik sahələrində tədbiq etməli və nəticədə, iqtisadi artımı sürətləndirməlidir. Azərbaycanda iqtisadi artımın və rəqabətqabiliyyətinin inkişafını daha da intensivləşdirmək üçün ən mühüm problemlərdən biri innovasiya fəaliyyəti ilə bağlı dövlət tənzimləməsinin effektiv olmamasıdır.Buna əsas səbəb isə ölkədə innovasiya fəaliyyətini həyata keçirən vahid bir innovasiya qurumunun mövcud olmamasıdır. Belə ki, vahid qurum mövcud olmaması elmi-texniki inkişafların və digər innovasiyaların iqtisadiyyatın aqrar və sənaye istehsalı sahəsinə inteqrasiyasını məhdudlaşdırır.

Digər bir ciddi problem isə ondan ibarətdir ki, ölkəyə dövlət ciddi innovativ texnologiya axını mövcuddur. Bu isə daxili innovasiya mühitini xaricdə istehsal edilmiş texnoloji yeniliklərdən asılı vəziyyətə salır. Bundan əlavə, innovasiya fəaliyyətinin təşkili və inkişafı üçün ixtisaslı kadr çatışmazlığı da ölkənin ən əsas problemlərindən biridir. Belə ki, yeni innovasiyaların iqtisadiyyatın aqrar və sənaye sahələrinə inteqrasiyasını təşkil etmək və innovativ

texonologiyalar və avadanlıqlar barəsində müəssisələri informasiya ilə təmin etmək üçün ixtisaslı kadrların mövcudluğu vacibdir. Lakin bu sahədə ciddi kadr çatışmazlığı innovasiyaya əsaslanan iqtisadiyyatın inkişafına əngəl törədir və ölkənin rəqabətqabiliyyətli məhsul istehsalını məhdudlaşdırır.İnnovasiyanın ölkənin rəqabətqabiliyyətinə ciddi təsir göstərdiyinə görə və iqtisadiyatı daha da inkişaf etdirmə potensialına malik olduğuna görə dövlət tərəfindən bu sahədə müəyyən tənzimləmələrin həyata keçirilməsi vacibdir(Qasımov F.H, Əliyev T.N,2013,s.76).

- Vahid innovasiya sisteminin yaradılması və həyata keçirilməsi
- Milli İnnovasiya Sisteminin layihəsinin hazırlanması və reallaşdırılması
- İnnovasiya mühitinə nəzarət edə biləcək və bu sahəni iqtisadiyyatın digər sahələri ilə əlaqələndirəcək müvafiq dövlət qurumun yaradılması
- İnnovasiya layihələrinə investisiyaların cəlb edilməsi üçüb müvafiq dövlət nəzarətinin gücləndirilməsi
- İxtisaslı kadrların bu sahədə sayının və keyfiyyətinin artırılması üçün təhsil ocaqlarında müvafiq ixtisasların yaradılması
- Regionlarda innovasiyanın inkişafını təmin etmək məqsədi ilə innovasiya fondlarının yaradılması

Bu kimi tədbirlərin həyata keçirilməsi ölkədə innovasiya fəaliyyətinin inkişafına müsbət təsir göstərəcək və nəticədə, rəqabətqabiliyyətli məhsulların istehsalına şərait yaradacaqdır.

## 3.2.Ölkənin rəqabətqabiliyyətinin yüksəldilməsində dövlət-sahibkarlıq əməkdaşlığının rolu

Hər bir ölkənin rəqabətqabiliyyətliliyini inkişaf etdirən ən əsas amillərdən biri də həmin ölkədəki dövlət və sahibkarlıq arasındakı əməkdaşlıqdır. Belə ki, dövlətin sahibkarlığa dəstəyi və bu sahənin inkişafını təmin etməsi, ölkənin iqtisadi inkişafına və rəqabətqabiliyyətli məhsul istehsal etməsinə şərait yaradır.

Hazırki şəraitdə ölkədə sahibkarlığın ən əsas problemlərindən biri də təşkilat-təsərrüfat sisteminin mövcud olmaması ilə bağlıdır.Bu sistemin əsas

xüsusiyyəti ölkədə istehsal prosesinin sahibkarlıq əsasında həyata keçirilməsi və innovasiyaya əsaslanan effektiv və səmərəli metod və vasitələr ilə təkrar emalın həyata keçirilməsidir. Təşkilat-təsərrüfat sisteminin ən əsas istiqamətlərindən biri sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi vasitəsilə daha da sürətləndirilməsi və təkrar istehsal prosesinin daimi olmasına çalışmasından ibarətdir . Buna görə də, hazırkı iqtisadi şəraitdə sahibkarlığın inkişafı bu sahənin dövlət tənzimlənməsindən ciddi şəkildə asılıdır. Belə ki, dövlət ölkədə sahibkarlığın formalaşmasında bir neçə fəaliyyəti həyata keçirir.

Bunlardan birincisi dövlət bacarıqlı "sahibkarlıq subyektini" formalaşdırmalı və onun fəaliyyətini təmin etməlidir. Belə ki, sahibkarlığın azad şəkildə fəaliyyət göstərməsi və eyni qayda və normalar əsasında inkişaf etməsi birbaşa dövlət tərəfindən həyata keçirilən tənzimlənmələrdən asılıdır. Dövlət sahibkarlığın inkişafı və fəaliyyəti üçün hər kəsə şamil edilən ümumi qanunlar müəyyən edir, azad bazar iqtisadiyyatını təmin edir, sahibkarlıqla əlaqəli siğorta, vergi, kredit məsələlərini həll edir. Eyni zamanda, sahibkarlıqla bağlı təhsilli kadrların hazırlanması və bu sahədə yoxlamaların aparılmasını da dövlət tənzimləyir. Dövlətin sahibkarlıqdakı digər rolu isə onun rəqabət mühiti yaratması və təmin etməsi ilə əlaqədardır. Dövlət innovasiyaya əsaslanan rəqabətin inkişafına şərait yaratmalı və sahibkarlığın rəqabət üstünlüyünün yalnız innovasiyaların tətbiqi ilə əldə etməsini təmin etməlidir. Belə ki, inhisarçılıq fəaliyyətlərinin məhdudlaşdırılmasında və sahibkarlığın azad bazar iqtisadiyyatı prinsipinə əsasən inkişaf etməsində dövlətin rolu mühümdür.

Dövlətin sahibkarlığın inkişafındakı digər rolu isə onun sahibkarlığın innovasiyalar əsasında keyfiyyətli məhsul istehsal etməsinə şərait yaratması ilə əlaqədardır. Belə ki, dövlət tərəfindən sahibkarlara innovasiyaların tətbiqi ilə bağlı həm maddi, həm də texniki dəstək göstərilir. Bundan əlavə, dövlət innovasiya əsasında istehsal edilən məhsula tələbatın artmasını və stimullaşdırılmasını təmin etmə potensialına sahibdir. Belə ki, innovasiya əsasında istehsal edilən məhsula olan tələbatı dövlət sifarişləri vasitəsilə artırmaq mümkündür. Bu isə ölkədə bu

məhsullara olan tələbata müsbət təsir göstərir və sahibkarlığın innovasiya əsasında inkişafına şərait yaradır.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafına dəstək məqsədilə həyata keçirilən ən mühüm innovativ tədbirlərdən biri "Ailə Biznesinə Asan Dəstək" (ABAD) mərkəzinin yaradılması olmuşdur. ABAD Azərbaycan Respublikası Prezidentinin 23 sentyabr 2016-cı il tarixində verdiyi fərmana əsasən yaradılmışdır. Bu mərkəzin əsas məqsədi ölkədə rəqabətqabiliyyətli sahibkarlığın yaradılmasına dövlət dəstəyini formalaşdırmaqdan ibarətdir. ABAD ölkədə fəaliyyət göstərən kiçik və orta sahibkarların təsərrüfatlarının biznes planlaşdırılması, marketinq, hüquqi məsləhət və bu kimi digər məsələlərdə yardım göstərmək və onların fəaliyyətini daha da intensivləşdirməkdən ibarətdir. Bundan əlavə ABAD istehsal edilmiş məhsulların logistika işinin təşkili və həmin məhsulların satışı kimi məsələlərdə də sahibkarlara dövlət dəstəyini formalaşdırır və həyata keçirir.

Bu mərkəzin əsas rolu isə regionlarda qida istehsalı ilə məşğul olan kiçik və orta səviyyəli sahibkarların daxili bazara inteqrasiyasını təmin etmək və nəticədə onların marketinq və brendinq vasitəsilə daxili bazardakı rəqabətqabiliyyətini artırmaqdan ibarətdir. ABAD kimi mərkəzin yaradılması və fəaliyyəti ölkədə dövlət və sahibkarlıq arasındakı əməkdaşlığın inkişaf etməsində və yeni hal almasında mühüm rol oynayır. Belə ki, dövlətin sahibkarlara dəstək məqsədilə belə bir mərkəzi yaratması, onun ölkədəki sahibkarlıqla əməkdaşlığının inkişafına müsbət təsir göstərir və bu əməkdaşlığı rəsmi şəkildə formalaşdırır. ABAD birbaşa dövlət büdcəsi vasitəsilə maliyyələşdirilən publik hüquqi şəxsdir və sahibkarlığın inkişafına dövlət dəstəyini təmin edən yeni bir mexanizmdir.

Dövlət tərəfindən həyata keçirilən bu kimi tədbirlərə baxmayaraq, ölkədə hələ də dövlət və sahibkarlıq arasındakı əməkdaşlığın inkişafının daha da inkişaf etdirilməsinə və bunun üçün ABAD kimi xüsusi bir mexanizmin yaradılmasına ehtiyac vardır. ABAD bir mərkəz kimi ölkədə yalnız orta və kiçik sahibkarlara dəstək verir və onun fəaliyyət dairəsi dardır. Buna görə də yeni mərkəzin

yaradılmasına və sahibkarlığın bütün sahələrinə dövlət dəstəyinin təmin edilməsinə ehtiyac vardır.

Ölkəmizdə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların iqtisadi imkanlarının genişləndirilməsi, həmçinin yeni iş yerlərinin yaradılması məqsədi ilə bir çox islahatlar keçirilmişdir.Azərbaycan artıq iqtisadi cəhətdən dünya ölkələri ilə eyni səviyyədədir və yaxın gələcəkdə iqtisadi potensialımızın ən yüksək səviyyəsinə çatacağıq.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikasında son illərdə rəqabətqabiliyyətinin inkişafı nəzərə çarpır. Belə ki, ölkənin sənaye istehsalı və kənd təsərrüfatı məhsullarının istehsalındakı inkişaf tempi bunu deməyə imkan verir. Son illərdə ölkənin mədənçıxarma sənayesindəki istehsal artımı sənayenin bu sahəsinin ölkə iqtisadiyyatına təsirini artırmış və nəticədə, Azərbaycanın rəqabətqabiliyyətinə müsbət təsir göstərmişdir. Bundan elavə, emaledici sənayedəki inkişaf da ölkənin rəqabətqabiliyyətinə müsbət təsir göstərmişdir. Bu sahədə son illərdəki inkişaf, emaledici sənayenin ölkə iqtisadiyyatındakı roluna müsbət təsir göstərmişdir. Ölkədə fəaliyyət göstərən sənaye müəssisələrində yeni texnologiyaların tətbiqi nəticəsində ölkədə bu sahənin istehsal həcmində ciddi inkişaf baş vermişdir. Sənaye ilə yanaşı ölkənin kənd təsərrüfatı sahəsində də ciddi inkişaf müşahidə edilmişdir. Belə ki, ölkədə müsbət iqlim şəraitinin və münbit resursların mövcuddluğu, Azərbaycan Respublikasında kənd təsərrüfatının bitkiçilik, meyvəçilik və heyvandarlıq kimi sahələrinə müsbət təsir göstərmişdir. Ölkə iqtisadiyyatının istehsal həcminin artması ölkənin rəqabətqabiliyyətinə müsbət təsir göstərmişdir. İstər sənaye, istərsə də kənd təsərrüfatı sahəsindəki artım ölkə əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə müsbət təsir göstərmiş və ölkənin beynəlxalq bazarda da söz sahibi olması ilə nəticələnmişdir.

Azərbaycan Respublikasında rəqabətqabiliyyətindəki inkişafı nəzərə alaraq, onun daha da inkişaf etdirilməsi üçün aşağıdakı təklifləri vermək mümkündür:

- Ölkə iqtisadiyyatının sənaye və kənd təsərrüfatı sahələri arasındakı əlaqənin daha da inkişaf etdirilməsi ölkənin rəqabətqabiliyyətinin artmasına şərait yaradacaqdır. Belə ki, kənd təsərrüfatında istehsal edilən bir çox məhsul, sənayenin emaledici sahəsi üçün xammal xüsusiyyəti daşıyır və bu sahələri bir-biri ilə əlaqələndirdikdə, ölkənin həm kənd təsərrüfatı sahəsinin, həm də sanəye sahəsinin istehsal potensialı daha da artır və nəticədə ölkənin rəqabətqabiliyyəti inkişaf edir.
- Sənayenin emaledici sahəsinin inkişafı üçün xüsusi dövlət proqramının yaradılması və tətbiqi də ölkənin rəqabətqabiliyyətinin inkişafı müsbət təsir edə bilər. Azərbaycanda emal sənayesinin bir çox sahəsinin inkişafı üçün yüksək

potensial mövcuddur. Belə ki, qida məhsullarının inkişafı, içki istehsalı, tütün məhsullarının istehsalı və geyim istehsalı üçün həm münbit torpaqlar,həm də istehsal həcmi daima artmaqda olan kənd təsərrüfatı mövcuddur. Bu kimi amillərə baxmayaraq, emal sənayesinin ölkənin ümumi sənaye istehsalındakı həcmi mədənçıxarma ilə müqayisədə olduqca aşağı səviyyədədir. Buna görə də, sənayenin bu sahəsinin inkişafı həm sənayenin inkişafına, həm də ölkənin rəqabətqabiliyyətinin artmasına müsbət təsir göstərəcəkdir.

- Digər bir təklif isə kənd təsərrüfatı sahəsinin bitkiçilik sahəsinin inkişafına yeni aqroparkların yaradılması ilə köməklik etməkdir. Belə ki, çox zaman fermerlər daxili bazara çıxış əldə etməkdə çətinlik çəkdiklərindən istehsal edilən məhsulların xarab olması ilə üzləşirlər və bu da ölkənin istehsal potensialına mənfi təsir göstərir. Ancaq aqroparkların sayının artırılması, xüsusilə, Gəncə-Qazax bölgəsində, fermerlərə öz məhsullarını soyuducularda qorumaqda, bazara daha sərfəli qiymətə və daha çox keyfiyyətə sahib məhsulları çıxarmaqda kömək edəcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1.A.H.Tağıyev,(2012)İnnovasiya ( 3 saylı broşura),Bakı ,Təknur Nəşriyyatı.

2.ABAD,(2019) "Ailə Biznesinə Asan Dəstək".

3.Azərbaycan Dövlət Neft Şirkəti(2019)"Economics and Statistics".

4.Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Müşahidə Şurası(2009)"Azərbaycan Respublikası iqtisadiyyatının sahələri və iqtisadi rayonları üzrə",110 səh.

5.BMT,(2005)"Regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri (Lənkəran iqtisadi rayonu timsalında)",114 səh.

6.Dövlət Statistika Komitəsi (2019). İqtisadi statistika.

7.Dünya İqtisadiyyat Formu,(2018),Qlobal rəqabətlilik hesabatı (The Global Competitiveness Report), 125 səh.

8.FAO,(2015) ,Azərbaycan təbii kənd təsərrüfatı,104 səh.

9.Göygöl Şərab Zavodu ,(2019) Şərab istehsalı.

10.Hacıyev F.(2018),Azərbaycan respublikasında ixrac potensialının təhlili və inkişaf perspektivləri, Statistika xəbərləri, № 1,28-37 səh.

11.İbrahimov M.(2015),İstehsal və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi. 82 səh.

12.İsmayılov F.(2015),Azərbaycan respublikasında aqrar sektorun davamlı inkişafının hüquqi təminatının təkmilləşdirilməsi məsələləri, Adiu,Bakı,124 səh.

13.Kənd Təsərrüfatı Nazirliyi,(2015),Kənd Təsərrüfatı: Aylıq İnformasiya Bülleteni, 2015, 20 səh.

14.Qasımov F.H, Əliyev T.N "Milli innovasiya sisteminin təşkili və idarə edilməsi",Elm və Təhsil-Bakı 2013

15.Nargilə M.(2016), Biznesin innovasiyalı inkişafının əsas istiqamətləri. Adiu.101səh.

16.Niftiyev İ.(2015) ,Azərbaycan sənayesinin rəqabətqabiliyyətliliyinin artırılması yolları. Adiu.87 səh.

17Strateji Yol Xəritəsi“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”, 2016.
18Süleymanov Q.S. və Səmədova T.P.(2017),Sənaye müəssisələrində rəqabət münasibətlərinin qiymətləndirilməsi metodologiyası. “İpək Yolu”.
19.Vüsətov T.(2016), Dünya təsərrüfat əlaqələrinin qloballaşması şəraitində Azərbaycanın rəqabət strategiyası,Adiu,Bakı ,101 səh.

**Xarici dildə**

1.Ajitabh A.“Competitiveness of Firms: Review of Theory, Frameworks and Models". Singapore Management Review, 2004
2.Altomonte C.(2012),The Triggers of Competitiveness. The EFIGE Cross-Country Report. The Bruegel Blueprint Series, Bruegel, Brussels,.
3.Barker T.və Köhler J.“Environmental Policy and Competitiveness”. Environmental Policy Research Briefs, 1998.
4.Bienkowski, W.(2008),How much are studies of competitiveness worth? Some critical theoretical reflections on the issue.Poland.
5.Buckley P.J. və Prescott K.“The Meaning of Competitiveness. Servicing International Markets: Competitive Strategy of Firms”. Blackwell Publishers ,Cambridge .2008.
6.Carvalho L. və Vasconcellos, M.“Competitiveness of Nations: Review of Metrics used by World Economic Forum”,2012.
7.Djogo M. və Stanisic, N. “Is the Global Competitiveness Report the right measure of macroeconomic competitiveness?”,2016.
8.Dunning J.H. və Zhang F. "Foreign direct investment and the locational competitiveness of countries”.Transnational Corporations”,2008.
Economy magazine ”(2008), Ekonomski pregled Economic Review,42 p.
9.Flejterski S.(1994)“The essence and measurement of internationalcompetitiveness”
IMF (International Monetary Fund)- World Economic Outlook Update, April 2017: Gaining Momentum? Washington, 2017

10.Kordalska, A. və Olcyzk, M. "Global Competitiveness and Economic Growth: A One-Way or Two-Way Relationship?", 2015

11.Krugman, P."Making Sense of the Competitiveness Debate, International Competitiveness", Oxford Review of Economic Policy,1996.

12.Lovrinčević Ž, Mikulić D. və Rajh E."Comparison of Methodologies for measuring National Competitiveness", Competitive Position of Croatian.

13.McMillan.M.S və D.Rodrik."Globalization, Structural Change and Productivity Growth". NBER Working Paper No. 17143. Cambridge, MA: National Bureau of Economic Research, 2011.

14.OECD "The MENA-OECD Competitiveness Programme". 2011

15.Peter H. (2015) "Agricultural workers and their contribution to sustainable agriculture and rural development" FAO.-91 p

16.Porter M.E.(1990), The Competitive Advantage of Nations. New York.«The Free Press»

17.Porter, M. E."Location, clusters and the 'new' microeconomics of competition", Journal of Business Economics, 1999.

18.Trabold, H."The international competitiveness of an economy", Quarterly Booklets on Economic Research of the DIW. 1995, 169–183 p

19.Wignara.G.(2003), Competitiveness Strategy in Developing Countries.London. «Routledge»

20.Wignaraja, G. və Ikiara, G. "Adjustment, technological capabilities and enterprise dynamics in Kenya". The Technological Response to Import Liberalisation in SubSaharan Africa, MacMillan. London,1999.

21.Wignaraja,G.vəTaylor,A.(2003),Benchmarking competitiveness: Competitiveness Strategy in Developing Countries. New York.«Routledge»

22.World Economic Forum (1994),The World Competitiveness Report. Lausanne

## İnternet resursları

https://www.economy.gov.az/article/azda-sahib-inkishaf-tar/21410

http://www.elibrary.az/docs/jurnal/jrn2018_141.pdf

https://www.stat.gov.az/source/industry/

http://unec.edu.az/application/uploads/2016/07/Niftiyev-Iibrahim-Dissertasiya.pdf

https://www.stat.gov.az/source/agriculture/

http://unec.edu.az/application/uploads/2016/07/dissertasiya-i-i-Nargile.pdf

## Cədvəllərin siyahısı

**Cədvəl 1**:Azərbaycanda ixrac əmtəə strukturunun dinamikası (Milyon ABŞ Dolları)........................................................................................................ 30

**Cədvəl 2**: Sənaye məhsullarının həcmi (Milyon Manat ilə)........................................ 36

**Cədvəl 3**: İqtisadiyyatın sahələri üzrə məhsul istehsalı (Qiymətlər milyon manat ilə)........................................................................................................ 38

**Cədvəl 4:** İqtisadiyyatın sahələrinin ÜDM üzrə dəyəri (Faizlə)................................ 39

**Cədvəl 5:** Sənaye istehsalının ərazi strukturu .......................................................... 40

**Cədvəl 6**: Bitkiçilik məhsullarının daxili istehsal həcmi (min ton ilə)..................... 42

**Cədvəl 7**:Bitkiçilik məhsullarının istehsalı (Min ton ilə)........................................... 43

**Cədvəl 8**: Heyvandarlıq məhsullarının istehsalı (Min ton)........................................ 44